

Milli azadlıqdan şirin nemət yoxdur!



# Tarixi nəticə...

## İham Əliyev: Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 avqust 2024-cü il, cümə axşamı

№ 146 (6732)

Qiyməti 60 qəpik


Bax səh. 2

## Ənənəvi dəyərlər ən böyük sərvətimizdir!

Bax səh. 2



## "Böyük qayıdış"ın yeni ünvanı!

Bax səh. 8

## Korrupsiyaya qarşı qətiyyətli mübarizə

Korrupsiya tarix boyu cəmiyyətlərin üzləşdiyi problemlərdən olub və bu gün də bütün dünya ölkələrində aktual məsələlərdən biri kimi qalmaqdadır. Ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur. Bütün bunlar nəzərə alınmaqla korrupsiyaya, rüşvətxorluğa və bu kimi...

Bax səh. 2



## "Yaşıl enerji" istehsalında rekord...

Bax səh. 6

## YAP-ın seçki platforması yeni Azərbaycanın milli yol xəritəsidir

Bax səh. 6

## Yeni beynəlxalq reytinq

"Fitch Ratings" beynəlxalq reytinq agentliyi tərəfindən İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) fəaliyyətinin yenidən qiymətləndirilməsi həyata keçirilib. Agentliyin qiymətləndirməsinə əsasən, fondun uzunmüddətli xarici və yerli valyutada reytinqi "BB+" səviyyəsindən "BBB-" səviyyəsinədək yüksəldilib. Qeyd edək ki, İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyəti 2009-cu ildən "Fitch Ratings" tərəfindən yerli və xarici valyutada uzunmüddətli öhdəlikləri üzrə reytinq dərəcələri ilə qiymətləndirilir. İndiyə qədər "BB" və "BB+" reytinq dərəcələri əldə edən Fond uzunmüddətli öhdəlikləri üzrə verilmiş reytinq göstəricisini yüksəltməyə nail olub.

İpoteka Fondunun müsbət reytinqlə dəyərləndirilməsində bir müddət əvvəl Azərbaycan dövlətinin beynəlxalq suveren reytinqinin yüksəldilməsi də əhəmiyyətli rol oynayıb. Belə ki, iyul ayında "Fitch Ratings" Azərbaycanın uzunmüddətli xarici valyutada reytinqinin bir pillə artırılaraq "BBB-" səviyyəsinə, yəni investisiya dərəcəli reytinqə yüksəldilməsi barədə qərar qəbul edib ki, bu da ölkəmizin 8 illik sabit "BB+"reytinqindən sonra...

Bax səh. 7

## YAZIMIZ, DİLİMİZ...

"Yazımız, dilimiz, "İkinci il"imiz"...

Uşaq ədəbiyyatına dair ciddi nəzəri ümumiləşdirmələri, prinsipial yanaşmaları ilə seçilən bu məqalə bütünlükdə humanitar düşüncə sistemimizin bir çox məqamlarına işıq salır.

Məqalənin ərsəyə gəlmə tarixi məlumdur. XX əsrin əvvəllərində - İkinci müəllimlər qurultayından sonra müəyyən dərsliklər çap olunmağa başladı. Bu dərsliklərdən birinin tərtibində M. Mahmudbəyov, S. Əbdürrəhmanbəyzadə, F. Ağazadə, A. Talıbzadə, A. Əfəndizadə, Süleyman Sani Axundov iştirak etmişdir. "İkinci il" adlanan bu dərslik 1908-ci ildə Bakıda nəşr edilmişdir. Şəhərin pedaqoji ictimaiyyəti, ümumiyyətlə, ziyalıların ciddi maraqla qarşıladığı "İkinci il"i Süleyman Sani Axundov "inqilabvari dərslik" adlandırmışdır və bu, zənnimizcə dərsliyin ictimaiyyət arasında doğurduğu güclü əks-səda ilə bağlı idi. Tədqiqatçı Nadir Vəlixanov yazır: "Bu dərslik Azərbaycan pedaqoji fikir tarixində yeni mütərəqqi hadisə olmuşdur. "İkinci il"in müəllifləri yenicə oxuyub yazmağa başlayan azərbaycanlı balaların təlim-tərbiyəsinə aid fikirləri sadə, aydın dillə qələmə almağı qarşıya əsas...

Bax səh. 7

## Məktəbli formaları ucuzlaşdı...

Yeni tədris ilinin başlamasına tam bir ay qalıb. Tədris prosesi yaxınlaşdıqca valideynləri ən çox maraqlandıran məqamlardan biri məktəbli formaları ilə bağlıdır. Bəllidir ki, hər il formaların keyfiyyəti, qiyməti, bəzi hallarda isə tapılmaması ilə bağlı müəyyən müzakirələr yaranırdı. Xatırladaq ki, ötən il Nazirlər Kabinetinin qərarına əsasən, məktəbli formaları dörd fərqli rəngdə şagirdlərin istifadəsinə verilib.

**20 faiz endirim...**

Hələlik məktəbli formalarını satın alanların sayı az olsa da, yeni tədris ili ərəfəsində formaların qiymətində ucuzlaşma yaranıb. Bakı Tikiş Evinin (BTE) satış müdiri Etibar Əzimov deyib ki, məktəbli formaları ötən illə müqayisədə ucuzlaşıb: "Bu il müəssisənin daxili imkanları hesabına şalvar və ətəklərin qiymətində 20 faiz endirim etmişik. Əvvəllər şalvarlar və ətəklər 26-dan 54 ölçüyə kimi 25 manat idisə, bu ilki qiymətləri 20 manat olacaq. Endirimə səbəb çox sayda saxta paltarların satışda olmasıdır."

**1 illik zəmanət verilir...**

Bax səh. 8



## Makronistlər yeni koalisiya axtarışında

Bax səh. 8



# Tarixi nəticə...

## İham Əliyev: Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik



## Prezident İlham Əliyev Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən dövlətimizin başçısı İlham Əliyev idmançılarımızı gözəl qələbələr münasibətilə təbrik edib: “Siz Yay Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmisiniz, Azərbaycan Bayrağını ucaltmısınız, bütün xalqımızı sevindirmisiniz. Sizi həm təbrik edirəm, həm də sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir. İdmançıları, onların məşqçilərini bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm.

Onu da bildirmək istəyirəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır.

Xüsusilə qızıl medalçılarımızı - Hidayəti və Zelimi ürəkdən təbrik etmək istəyirəm. Onlar Olimpiya Oyunlarının ilk günlərində bu qələbə sevincini xalqımıza bəxş etmişlər. Onların həm peşəkarlığı, həm idmandakı uğurları və eyni zamanda, davranış qaydaları, əlbəttə ki, hər birimizi ürəkdən sevindirdi. Onlar uzun illər ərzində öz çəki dərəcələrində liderliyi qoruyublar və bu liderliyi Olimpiya Oyunlarında bir daha təsdiq etmişlər. Onların məşqçilərini təbrik edirəm, Cüdo Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Federasiyada işlər, təlim-məşq prosesi düzgün qurulanda, ab-hava gözəl olanda nəticə də əlbəttə ki, göz qabağındadır.

Daha çox medal qazana bilərdik, bəli, qazana bilərdik. Amma bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir. Onu da bildirməliyəm ki, bizim idmançılarımız beş idman növündə medallar qazanmışlar: cüdo, boks, taekvondo, yunan-Roma güləşi, sərbəst güləş üzrə. Yəni, bu da onu göstərir ki, Azərbaycanda idmanın bir çox növləri inkişaf edir.





Əlbəttə ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm dünya çempionatlarına hazırlıq işləri gedəcək. Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından sonra, xüsusilə ölkəmiz üçün uğurlu Oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq.

Əlbəttə, tam əminəm ki, həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayı çox olacaq və bunu arzulayıram. Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik.

Əlbəttə ki, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır. Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir.

Bir daha sizi ürəkdən təbrik etmək və sizə yeni qələbələr, uğurlar arzulamaq istəyirəm”.

***

Sonra Olimpiya çempionları, cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev Azərbaycan Prezidentinə xatirə hədiyyələri təqdim etdilər.

Daha sonra dövlətimizin başçısı XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılan yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə təltif olunan idmançılara və onların məşqçilərinə ordenləri təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Ənənəvi dəyərlər ən böyük sərvətimizdir!

## İlham Əliyev: Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurub

Hazırda bəşər sivilizasiyası yüksək səviyyəyə çatıb. Dördüncü sənaye inqilabı dövründə innovativ texnologiyalar həyatın bütün sahələrinə nüfuz edib, internet dünyanı, necə deyərlər, kiçik kəndə çevirib və bir ovuc içinə sığışdırıb. Belə bir şəraitdə tərəqqi, ölkələr, xalqlar arasında ünsiyyətin, əlaqələrin dərinləşməsi üçün daha geniş imkanlar yaransa da, qarşıya yeni çağırışlar da çıxıb. Elmi-texniki tərəqqinin sürətli inkişafının nəticəsində geniş vüsət alan qloballaşma şəraitində meydana çıxan əsas çağırışlardan biri isə xalqların fərqli mədəniyyətlərinin, milli-mənəvi dəyərlərinin qorunması ilə bağlıdır.

### Milli dəyərlərə əsaslanan dövlət siyasəti

Qloballaşma şəraitində ölkəmizi fərqləndirən və respublikamızı daha güclü edən amillərdən söhbət açarkən ilk növbədə onu vurğulamaq lazımdır ki, Azərbaycan tarixdən gələn milli-mənəvi dəyərlərin qorunub gələcək nəsillərə ötürülməsinə böyük önəm verən dövlətdir. Dünya birliyinin suveren aktoru olan respublikamızın ideoloji əsasları, daxili və xarici siyasətin prioritetləri məhz milli dəyərlər və milli maraqlar üzərində formalaşıb. Yeni Azərbaycan Partiyasının (YAP) seçki platformasında vurğulandığı kimi, mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması, xalqımıza məxsus yüksək keyfiyyətlərin dünyada tanıdılması dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Bu siyasətin əsasını və möhkəm özülünü isə milli ruhlu siyasətçi olan Heydər Əliyev qoyub. Mədəniyyətimizin Heydər Əliyev erası xalqımızın bütövlükdə, milli-mənəvi dəyərlərə yeni münasibətinin formalaşdığı dövr kimi xarakterizə olunmaqdadır. Bu dövrün mədəni tərəqqisinin əsas xarakteristikası ondan ibarətdir ki, Heydər Əliyevin həyata keçirdiyi mədəniyyət siyasəti ölkəmizin milli-mənəvi dəyərlərinin qorunmasına, təbliğinə və inkişafına güclü zəmin yaradıb, onu yeni-yeni çalarlarla zənginləşdirib.

Sonrakı mərhələdə Prezident İlham Əliyev bu sahədə siyasəti eyni ardıcıllıqla davam etdirib. Prezident İlham Əliyev Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələri ilə keçirdiyi görüşlərdə zəngin tariximizin, milli-mənəvi dəyərlərimizin qürur mənbəyimiz olduğunu dəfələrlə bəyan edib. “Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır”, - deyə dövlətimizin başçısı ölkəmizin “Bakı prosesi” çərçivəsində ev sahibliyi etdiyi qlobal tədbirlərdən birində vurğulayıb.

Ümumiyyətlə, milli-mənəvi dəyərlərin qorunması, cəmiyyətdən gələn sosial sifarişlərin dövlət siyasətində prioritet istiqamətlər kimi müəyyənləşdirilməsi Prezident İlham Əliyevin fəaliyyətindən qırmızı xətt kimi keçir.





Dövlət başçısı qloballaşma şəraitində milli dilimizin inkişafına və yad təsirlərdən qorunmasına, Azərbaycan ədəbiyyatının latın qrafikası ilə nəşrinə, zəngin mədəniyyətimizin təbliğinə, tariximizin araşdırılmasına dair çoxsaylı Fərman və sərəncamlar imzalayıb. Ölkəmizdə gənc nəslin milli ruhda tərbiyə olunması diqqət mərkəzində saxlanılır. Dövlətin hərtərəfli qayğısı sayəsində cəmiyyətdə xalqımızın milli-mənəvi dəyərlərinə böyük bağlılıq yaranıb. Ölkəmizdə bütün milli və dini bayramlar dövlət səviyyəsində qeyd edilir.

### Zəngin İslam mədəniyyəti...

Qədim tarixə malik Azərbaycan xalqının milli-mənəvi dəyərlər sisteminin formalaşmasında və zənginləşməsində İslam dini mühüm rol oynayıb. VII-VIII əsrlərdən etibarən xalqımızın həyat tərzi, mədəniyyəti, məişəti bəşəriyyəti saflığa, birliyə səsləyən İslam dini ilə sıx vəhdətdə olub və təbii ki, bu dinin çağırışları xalqımızın həyata baxışının, yaşam fəlsəfəsinin formalaşmasına öz müsbət təsirini göstərib.

Keçmiş sovet rejimi Azərbaycanın da tərkibində olduğu ittifaqın ərazisində digər dinlər kimi, İslam dininə də sərt qadağalar qoymuşdu. Ancaq xalqımız bu qadağalara baxmayaraq 70 il ərzində etiqadını, İslam dininə sadiqliyini qəlbində qoruyub saxladı. Azərbaycan ötən əsrin doxsanıncı illərinin əvvəllərində müstəqillik qazandıqdan sonra adət-ənənələrimizə, o cümlədən də İslam dininə münasibət tamam dəyişdi. Əgər SSRİ dövründə Azərbaycanda cəmi 17 məscid var idisə, indi onların sayı iki mini ötüb, həmçinin ölkə ərazisində 700-dən çox pir və ziyarətgah fəaliyyət göstərir. Hazırda respublikamızda təxminən 300 məscid dövlət tərəfindən tarixi abidə kimi qorunur. Cənubi Qafqazda ən böyük məscid 26 dekabr 2014-cü il tarixində məhz Azərbaycanda istifadəyə verilib. Bu məscid görkəmli siyasətçi Heydər Əliyevin adını daşıyır.

Ölkə ərazisində tarixi dini abidələrin qorunmasında və bərpasında Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu yaxından iştirak edir. Hazırda Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərimizdə ermənilər tərəfindən dağıdılmış dini abidələrimizə ikinci həyat verilir. Onlar tarixi fotolara istinad edilməklə bərpa olunur. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu şərəfli missiyanı Heydər Əliyev Fondu öz üzərinə götürüb. Artıq bir sıra abidələrin bərpası tamamlanıb, digərlərində isə işlər intensiv şəkildə davam etdirilir.

### Qloballaşma şəraitində əsas hədəflər

Qloballaşma şəraitində milli-mənəvi dəyərlərin yaşadılmasıvə mədəni irsin qorunması istiqamətində qarşıda bir sıra mühüm hədəflər var. O cümlədən xalqımızın tarixi, dili, ədəbiyyatı və mədəniyyətinin hərtərəfli inkişafına və təbliğ olunmasına çalışmalıyıq. Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyası əsasında milli kimliyin və mədəni müxtəlifliyin qorunması qarşımızda duran mühüm vəzifələrdən biridir. Hazırda əsrlərlə formalaşmış milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin, o cümlədən ailə institutumuzun mənfi təsirlərdən qorunması heç vaxt olmadığı qədər zərurətə çevrilib. Biz həmçinin mədəniyyətlərarası dialoq siyasətinin davam etdirilməsinə, multikulturalizm və tolerantlığın mənəvi dəyərlərimizin tərkib hissəsi kimi təşviqinə çalışmalıyıq.

*Mübariz ABDULLAYEV*

*Mübariz FEYİZLİ*

# Korrupsiyaya qarşı qətiyyətli mübarizə

Korrupsiya tarix boyu cəmiyyətlərin üzləşdiyi problemlərdən olub və bu gün də bütün dünya ölkələrində aktual məsələlərdən biri kimi qalmaqdadır. Ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur. Bütün bunlar nəzərə alınmaqla korrupsiyaya, rüşvətxorluğa və bu kimi digər neqativ hallara qarşı mübarizə ölkəmizdə aparılan islahatların mühüm bir qolu kimi müəyyənləşdirlib.

Respublikamızda müvafiq qurumların fəaliyyəti də Prezident İlham Əliyevin islahatlar kursunun tələblərinə, ölkəmizin hazırkı inkişaf mərhələsində qarşıya çıxan çağırışlara uyğun qurulub. Yeri gəlmişkən, ötən həftə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının növbəti iclası keçirilib. İclasda Komissiyanın sədri Samir Nuriyev çıxış edərək Prezident İlham Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyən etdiyi hədəflərə çatmaq üçün qurumun üzərinə düşən əsas vəzifələri iclas iştirakçılarının diqqətinə çatdırıb.

### Müvafiq qurumlar tərəfindən mübarizə tədbirləri gücləndirilir

Vətən müharibəsində qazanılan şanlı Qələbə nəticəsində işğal altında olan ərazilərin azad edilməsi ilə ölkəmiz üçün yeni inkişaf mərhələsi açılıb. İndiki starteji mərhələdə çağırışlardan biri ondan ibarətdir ki, müasir dövlət kimi inkişaf edən Azərbaycanda koorrupsiya, rüşvətxorluq və bu kimi digər mənfi hallara yer olmamamlıdır. Buna görə də respublikamızda korrupsiyaya qarşı sistemli şəkildə qətiyyətli mübarizə aparılır. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının bəhs olunan iclasında qurumun sədri Samir Nuriyev qeyd edib ki, 2024-cü ilin birinci yarımilliyində də dövlət idarəçiliyində səmərəliliyin artırılması, şəffaflığın gücləndirilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində davamlı tədbirlər həyata keçirilib. Vurğulandığı kimi, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar kursu bütün sahələrdə şəffaf və ədalətli idarəçilik sisteminin gücləndirilməsini və vətəndaş məmnunluğunun təmin edilməsini başlıca vəzifələrdən biri kimi qarşıya qoyur. Bu siyasi iradəyə uyğun olaraq korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə sahəsində yeni strateji baxışlar və vəzifələr müəyyən edilib, uğurlu iqtisadi, sosial və hüquqi siyasət nəticəsində Azərbaycanda şəffaf münasibətlər sistemi formalaşıb. Dövlət orqanlarında göstərilən xidmətlərin elektronlaşdırılması, eləcə də hüquq-mühafizə orqanları və məhkəmələr tərəfindən aparılan icraatların paralel olaraq elektron formada təşkili vətəndaşların dövlət qurumlarına əlçatanlıq səviyyəsinin artmasına, həmin qurumların şəffaflıq səviyyəsinin yüksəlməsinə səbəb olub. Eləcə də son illər ərzində hüquq-mühafizə orqanları tərəfindən korrupsiyaya qarşı mübarizə tədbirləri daha da gücləndirilib, təqsirkarların cinayət məsuliyyətinə cəlb edilməsi və vurulmuş ziyanın ödənilməsi çərçivəsində işlər davam etdirilir.

İclasda dövlətə məxsus torpaq sahələri ilə bağlı münasibətlərin tənzimlənməsi zamanı yol verilən korrupsiya hüquqpozmaları barədə məruzə dinlənilib, bu sahədə şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün verilən təkliflər müzakirə edilib. Eləcə də korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətləri barədə məruzə dinlənilərək dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması, dövlət və bələdiyyə mülkiyyətində olmayan kommersiya və ya qeyri-kommersiya qurumlarında korrupsiyaya qarşı mübarizə çərçivəsində görülməli olan tədbirlərin qanunvericilikdə təsbit edilməsi barədə fikir mübadiləsi aparılıb, nəzəriyyə və beynəlxalq təcrübə nəzərdən keçirilib.



### Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq

Dünya təcrübənin nəzərə alınması və müvafiq beynəlxalq qurumlarla əməkdaşlıq hər bir ölkənin korrupsiyaya qarşı milli səviyyədə apardığı mübarizənin uğurlarını şərtləndirən çox mühüm amildir. Korrupsiyaya qarşı mübarizənin dövlətlərin qarşılıqlı əməkdaşlığı kontekstində aparılması məqsədilə qəbul edilmiş ən mühüm beynəlxalq hüquqi qüvvəyə malik aktlardan biri Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasıdır. Ölkəmiz də həmin konvensiyaya qoşulmaqla, korrupsiyaya qarşı mübarizə sahəsində qətiyyətini bir daha nümayiş etdirib. Eyni zamanda, respublikamız korrupsiya ilə mübarizə üzrə ixtisaslaşmış ayrı-ayrı beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.

Həmin təşkilatların hesabatlarında Azərbaycanın korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumlarının fəaliyyəti, bu sahədə dövlətimizin ardıcıl şəkildə nümayiş etdirdiyi qətiyyətli siyasi iradəsi, həmçinin ölkəmizin “ASAN xidmət” təcrübəsi yüksək dəyərləndirlib. Heç təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının bəhs olunan iclasında korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq məsələləri də müzakirə edilib. Bu əməkdaşlıq çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlar olan Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD), Çirkli Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Dəyərləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) tövsiyələri ilə bağlı görülmüş işlər nəzərdən keçirilib. Bununla yanaşı, GRECO-nun 5-ci dəyərləndirmə raundu çərçivəsində verdiyi tövsiyələrin icrası ilə əlaqədar müvafiq qanun layihəsi Komissiya üzvlərinin müzakirəsinə çıxarılıb.

# “Azərbaycan xalqı öz Müzəffər Liderinə minnətdardır!”



Azərbaycan Respublikası Milli Məclisinə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyasının (YAP) 102 saylı Şəmkir şəhər seçki dairəsindən namizədi, VI çağırış Milli Məclisin sədri Sahibə Qafarovanın seçicilərlə növbəti görüşü Şəmkir rayonunun Abbaslı kəndində keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev ölkəmizdə mövcud olan azad, demokratik seçki mühiti və seçkilərin ədalətli keçirilməsi üçün yaradılan şərait, Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlığı barədə tədbir iştirakçılarına məlumat verib. O, YAP-ın bu dəfə də möhtəşəm qələbə qazanacağına inamını ifadə edib.

Görüşdə Yeni Azərbaycan Partiyasının 102 saylı Şəmkir şəhər seçki dairəsi üzrə namizədi, VI Milli Məclisin sədri Sahibə Qafarova çıxış edərək, qarşıdan gələn seçkilərdə Abbaslı kəndinin seçicilərinin də yüksək fəallıq göstərəcəyinə inamını ifadə edib.

Çıxışında parlament seçkilərinin əhəmiyyətindən danışan Sahibə Qafarova ölkəmizin zəngin seçki təcrübəsinə malik olduğunu, seçki praktikasının təkmilləşdirilməsi məqsədilə bütün lazımi tədbirlərin görüldüyünü bildirib. O, YAP-ın cəmiyyətdə yüksək nüfuza malik olduğunu, qələbələr partiyası kimi qəbul edildiyini deyib, bu seçkilərə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatılan partiyanın sentyabrın 1-də də qələbə qazanmaq əzmində olduğunu söyləyib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı möhtəşəm nailiyyətlər barədə danışan Sahibə Qafarova ölkəmizdə regionların sosial-iqtisadi inkişafının ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu bildirib. O, digər şəhər və rayonlarımızda olduğu kimi, Şəmkir rayonunda da müasir infrastrukturun yaradılması, əhalinin rifah halının daha da yaxşılaşdırılması istiqamətində xeyli işlər görüldüyünü bildirib.




Görüşdə çıxış edən seçicilər - Şəhla Vəliyeva, Sara Namazova, Şölə Paşayeva “Azərbaycan xalqı öz Müzəffər Liderinə, dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə daim minnətdardır”, - deyə vurğulayaraq parlament seçkilərində YAP-ın namizədini dəstəkləyəcəklərini bildiriblər.

# “Seçimimiz YAP-ın namizədidir!”

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) 25 saylı Nizami ikinci seçki dairəsindən deputatlığa namizədi, YAP Sədrinin müavini Əli Əhmədovun qadın seçicilərlə görüşü keçirilib.




Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən YAP Nizami rayon təşkilatının sədri Ramil Vəliboyov bildirib ki, YAP seçkilərə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatılır.



İndiyə qədər qazanılmış qələbələrə, yüksək nüfuzuna görə bu gün respublikada YAP-a alternativ olacaq qüvvə yoxdur. O əlavə edib ki, Azərbaycan Respublikası Milli Məclisinə sentyabrın 1-də keçiriləcək seçkilər xalqın YAP-a etimadının daha bir bariz ifadəsi olacaq.

Tədbirdə çıxış edən deputatlığa namizəd, YAP Sədrinin müavini Əli Əhmədov partiyanın seçki platforması haqqında ətraflı məlumat verib. Əli Əhmədov bildirib ki, harada qadın fəallığı varsa, orada ictimai tərəqqi var. Azərbaycan qadını bütün sahələrdə ictimai fəallığını nümayiş etdirir. O qeyd edib ki, ölkədə qadınlar həyatın bütün sahələrində iştirak edirlər: “Onların rolunun və iştirakçılığının artırılması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Hazırda Azərbaycan cəmiyyətində qadınlarımızın iştirakçılığının artırılması istiqamətində məqsədyönlü siyasət aparılır. Dövlətimiz qadınların iştirakçılığını təmin etməklə bərabər, onların potensialından düzgün istifadəni də diqqətdə saxlayır”.

Əli Əhmədov çıxışında qadın seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Tədbirdə, həmçinin təşviqat qrupunun üzvlərindən Gülşən Behbud, Həmidə Ələfsərova, Səbinə Həsənova, Sədaqət Vəliyeva və digərləri çıxış ediblər. Onlar seçiciləri səsvermə günü aktiv olmağa və YAP-ın namizədinə səs verməyə çağırış ediblər.

Seçicilər də öz növbəsində 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini ifadə ediblər. “Seçimimiz YAP-ın namizədidir!”, - deyə vurğulanıb.

Həmin gün deputatlığa namizəd Əli Əhmədov Vətən müharibəsi şəhidi Vüqar İnşallah oğlu Cəfərovun ailəsi ilə görüşüb, müxtəlif ünvanlarda fərdi və məhəlli görüşlər keçirib.

# “Zəfərə, inkişafa, rifaha səs verək!”

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 67 saylı Sabirabad seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əhliman Əmiraslanov Sabirabad rayonunun Yuxarı-Axtaçı, Qasımbəyli, Muradbəyli və Əsgərbəyli kəndlərindən olan seçicilərlə görüş keçirib.



YAP Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov qeyd edib ki, bu gün Yeni Azərbaycan Partiyası Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayır: “Hazırda partiya üzvlərinin sayı 700 mindən artıqdır. Bu, xalqımızın Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqliyinin və Prezident İlham Əliyevin siyasətinin dəstəklənməsinin göstəricisidir”.

Çıxış edən deputatlığa namizəd Əhliman Əmiraslanov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O vurğulayıb ki, Heydər Əliyev irsini müasir çağırışlara uyğun zənginləşdirərək varislik prinsipi əsasında uzaqgörən və məqsədyönlü siyasət həyata keçirən dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ölkəmizə misilsiz tarixi nailiyyətlər qazandırıb: “Yeni dövrün yeni hədəflərinin reallaşdırılması ölkəmizə yeni qələbələr bəxş edəcəkdir”.



Əhliman Əmiraslanov çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb. “Xalqın inamını layiqincə doğrultmuş Yeni Azərbaycan Partiyasına bir daha etimad göstərərək Zəfərə, inkişafa, rifaha səs verək!”, - deyə vurğulanıb.

Tədbirdə çıxış edənlər - şəhid atası Oktay Ənnağıyev, Mehman Musayev, Əlövsət Ənnağıyev, Əlişirin Əliyev və digərləri YAP-ın namizədinə dəstəklərini ifadə ediblər.

# “Daim irəliyə gedəcək, yeni zirvələr fəth edəcəyik”

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 2 saylı Şərur-Kəngərli seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzovun Danyeri və Tənənəm kənd seçiciləri ilə görüşü keçirilib.



Görüşdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Şərur rayon təşkilatının sədr müavini Adil Əhmədov çıxış edərək Yeni Azərbaycan Partiyasının yarandığı gündən etibarən şərəfli yol qət etdiyini, uğurlu fəaliyyəti ilə xalqın partiyasına çevrildiyini deyib.

Deputatlığa namizəd Siyavuş Novruzov görüş zamanı hüquqi və demokratik dövlət olan Azərbaycanda sentyabrın 1-də keçiriləcək parlament seçkilərinin əhəmiyyətindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət kursunun uğurlu nəticələrindən bəhs edib. S.Novruzov YAP-ın ölkəmizin tərəqqisində, müstəqil dövlətçiliyimizin əsaslarının möhkəmlənməsində tarixi rolu və misilsiz xidmətləri barədə danışaraq bildirib: “Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyev xalqımıza dəyərli siyasi mirasıdır. Partiyamız bu gün cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın milli maraqlarına xidmət edən məqsədyönlü fəaliyyətini davam etdirir. Şübhə yoxdur ki, YAP bu seçkilərdə də xalqın dəstəyi ilə inamlı qələbə qazanacaq. Daim irəliyə gedəcək, yeni zirvələr fəth edəcəyik”.



Çıxış edən seçicilər - Əli Əlisoy, Əli Həsənov, Heydər İsmayılov və digərləri Prezident İlham Əliyevin vətəndaşların rifahı və mənafeyinə xidmət edən siyasətindən məmnunluq və minnətdarlıq hissi ilə bəhs edib, daha qüdrətli Azərbaycan naminə YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

# Qalib Azərbaycan özünün ən qüdrətli dövrünü yaşayır

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 43 saylı Sumqayıt ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Tahir Mirkişilinin Sumqayıt şəhərində seçicilərlə növbəti görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Sumqayıt şəhər təşkilatının sədr müavini Cavid Məmiyev parlament seçkilərinin ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçirilməsinin əhəmiyyətini vurğulayıb. O, Yeni Azərbaycan Partiyasının bu seçkilərə yüksək səviyyədə hazırlaşdığını deyib.

Deputatlığa namizəd Tahir Mirkişili bildirib ki, qalib Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. O qeyd edib ki, bu gün uğurla davam etdirilən genişmiqyaslı islahatlar dövlət idarəçiliyinin və siyasi sistemin təkmilləşməsinə, iqtisadiyyatın inkişafına, əhalinin sosial rifahının yaxşılaşmasına, xalqımızın milli mədəni irsinin və mənəvi dəyərlərinin qorunmasına və ümumilikdə Azərbaycanın yüksəlişinə xidmət edir: “Yeni mərhələdə islahatların dərinləşdirilməsi qarşıda duran əsas vəzifələrdən biridir. Bu islahatlar iqtisadi idarəetmənin köklü səviyyədə müasirləşməsinə, inkişafın yeni hərəkətverici qüvvələrinin təşəkkül tapmasına və hər bir Azərbaycan vətəndaşının rifahının yüksəlməsinə zəmin yaradacaq”.



Çıxış edən təşviqat qrupunun üzvləri Şakir Abuşov, Mətanət Məhərrəmova və digərləri YAP-ın məqsədyönlü fəaliyyətindən, əldə edilən uğurlardan və gələcək hədəflərdən danışıb, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləməyə çağırıblar.

Görüşdə çıxış edən seçicilər ölkə başçısı İlham Əliyevin həyata keçirdiyi islahatlardan, insanların rifah halının yaxşılaşmasından razılıqlarını bildiriblər, parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# “Yeni Azərbaycan reallığı milli qürur mənbəyimizdir”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 51 saylı Şirvan seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Heydər Əsədovun Şirvan şəhər Mədəniyyət Mərkəzində seçicilərlə görüşü keçirilib.

YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlərdən bəhs edib. O, parlament seçkilərində YAP-ın növbəti qələbə qazanmasının xalqımızın parlaq gələcəyi naminə çox əhəmiyyətli olduğunu bildirib.

Çıxış edən deputatlığa namizəd Heydər Əsədov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyev öz zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə, müstəqilliyi daimi, dönməz və əbədi etməyə nail olub, xalqımıza çoxsaylı tarixi nailiyyətlər qazandırmaqla yeni, müasir və müstəqil Azərbaycan reallığını yaradıb: “Müasir müstəqil Azərbaycan Heydər Əliyevin zəngin milli-mənəvi dəyərlərə və çoxəsrlik dövlətçilik ənənələrinə malik xalqımıza ən böyük tarixi və mənəvi-siyasi mirasıdır. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri onun siyasi varisi cənab İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirib, Heydər Əliyevin arzuları reallığa çevrilib. Bu gün Azərbaycan tərəqqi və Zəfər yolunda əmin addımlarla irəliləyir”.

Tədbirdə təşviqat qrupunun üzvləri Əbülfət İsmayılov, Vasif Əlizadə, Elçin Məlikov, Namidə Quluzadə və Adəm Hüseynov çıxış edərək hər bir seçicini parlament seçkilərində fəal iştirak etməyə, yeni dövrün hədəflərinə nail olmaq üçün Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıblar.

Görüşdə çıxış edən seçicilər Alma Cəfərova, Şahmar Abdullayev və İlham Salmanov YAP-ın namizədinə səs verəcəklərini bildiriblər. “Yeni Azərbaycan reallığı milli qürur mənbəyimizdir”, - deyə vurğulanıb.



# "İnam və etimad bir daha özünü doğruldacaq"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 46 saylı Sumqayıt beşinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Elnarə Akimovanın Sumqayıt şəhər Nəriman Nərimanov adına Mədəniyyət Mərkəzində Zeynalabdin qəsəbəsində yaşayan seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.



YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatındakı rolundan danışıb. Bildirib ki, Azərbaycan Respublikası Milli Məclisinə sentyabrın 1-də keçiriləcək seçkilər xalqın YAP-a inamının növbəti ifadəsi olacaq.

Deputatlığa namizəd Elnarə Akimova YAP-ın seçki platforması barədə məlumat verib. O bildirib ki, bu gün Azərbaycan dövləti Prezident İlham Əliyevin zəngin siyasi təcrübəsi, möhkəm iradəsi və qətiyyətli liderliyi ilə dinamik inkişaf yolunda irəliləyir: "Azərbaycan dünyada sabitlik və təhlükəsizlik adası kimi tanınır. Milli həmrəylik dövlətimizə böyük uğurlar qazandırır. Sosioloji tədqiqat mərkəzlərinin keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini göstərir".

Təbliğat qrupunun üzvləri Elmar Xəlilov, Nasir Rzayev və Nəsrulla Məmmədov çıxış edərək YAP-ın ölkəmizə mühüm nailiyyətlər qazandırdığını bildirib, seçiciləri ən layiqli namizədə səs verməyə çağırıblar. "Xalqın inam və etimadı bir daha özünü doğruldacaq", - deyə vurğulanıb.

Çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini vurğulayıblar.

# Yeni hədəflərin reallaşdırılması növbəti uğurlara yol açacaq

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 34 saylı Xətai ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Mixail Zabelinin YAP Xətai rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.



Görüşü giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədr müavini Vüqar Hüseynov inkişaf yolunda inamla addımlayan Azərbaycanın davamlı nailiyyətləri və möhtəşəm zəfərlərindən bəhs edib: "İnkişafın Azərbaycan modeli bu gün dünyanın diqqətindədir. Yeni Azərbaycan Partiyası daim ölkəmizin inkişafına dəyərli töhfələr verir. Yeni hədəflərin uğurla reallaşdırılması isə gələcək uğurların başlanğıcıdır".



Deputatlığa namizəd Mixail Zabelin YAP-ın keçdiyi inkişaf yolundan danışıb. O, partiyaya xalqın sevgisini və inamını şərtləndirən amillər sırasında Heydər Əliyev ideyalarına sədaqəti xüsusi vurğulayıb: "Ölkə Prezidenti İlham Əliyev bu ideyalara söykənərək Azərbaycanı zirvələrə yüksəldib. Suverenliyi tam bərpa edilən ölkəmizin həyatında yeni dövr başlayıb və uğurla davam edir".

Tədbirdə təşviqat qrupunun üzvləri Mürvət Əsgərov, Nizami Mehdizadə, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov, namizədin nümayəndəsi Firdovsi Cahangirov, seçicilər Könül Yusifova və Qəmər Cəfərova çıxış edərək hər bir seçicini öz seçki hüququndan istifadə edərək parlament seçkilərində fəal olmağa, yeni dövrün hədəflərinə yüksək səviyyədə nail olmaq, qalib Azərbaycanın tarixini daha möhtəşəm uğurlarla zənginləşdirmək üçün Yeni Azərbaycan Partiyasına bir daha etimad göstərməyə çağırıblar.

# YAP daim milli maraqları üstün tutub



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ceyhun Məmmədovun Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində yerləşən məcburi köçkün şəhərciyində seçicilərlə görüşü keçirilib.

YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının zəngin inkişaf yolu keçərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atdığını deyib.

Görüşdə çıxış edən deputatlığa namizəd Ceyhun Məmmədov YAP-ın seçki platforması haqqında məlumat verib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası müdrik dövlət xadimi Heydər Əliyevin əmanətidir. YAP daim xalqın mənafeyinə xidmət edərək şərəfli tarix yazıb: "Bu günə qədər tarixi nailiyyətlərə imza atmışıq. Yeni dövrün reallıqları və çağırışlarından irəli gələn hədəflərin gerçəkləşdirilməsi isə Azərbaycanın qüdrətini artıracaqdır".

Tədbirdə təşviqat qrupunun üzvləri Aslan Aslanov, Elçin Hüseynbəyli və digərləri çıxış edərək deyiblər ki, yarandığı vaxtdan iştirak etdiyi bütün seçkilərdə qələbələr qazanan Yeni Azərbaycan Partiyası siyasi sistemin aparıcı qüvvəsi kimi yüksək nüfuz qazanıb. Onlar uğurlarımızın davamı naminə seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.



Qeyd edək ki, deputatlığa namizəd Ceyhun Məmmədov Nərimanov rayonu Arif Heydərov küçəsində məskunlaşan cəbrayıllı məcburi köçkünlərlə də görüşüb.

# "Yeni qələbələrin astanasındayıq"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 78 saylı Lənkəran kənd seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Anar İsgəndərovun rayonun Haftoni kəndində seçicilərlə görüşü keçirilib.

YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev vurğulayıb ki, ümumxalq partiyası olan YAP yarandığı dövrdən indiyə qədər Azərbaycanın tərəqqisi naminə çalışıb: "Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının nüfuzu gündən-günə artır".

Çıxış edən deputatlığa namizəd Anar İsgəndərov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Azərbaycan bu gün dünyada nüfuzlu dövlət kimi tanınır: "Ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası hər birimizin qürur mənbəyidir. Artıq yeni dövrə qədəm qoymuşuq. Qarşımızda bir çox mühüm hədəflər durur və qüdrətli Azərbaycan dövləti bütün milli məqsədlərin gerçəkləşməsinə nail olacaqdır. Biz yeni qələbələrin astanasındayıq".

A.İsgəndərov parlament seçkilərinin ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçirilməsinin önəmini də vurğulayıb.

Deputatlığa namizəd çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.



Tədbirdə Asif İmanlı, Ələkbər Əliyev, Ramin Höccətov və Emin Məlikov çıxış edərək seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

# "Xalqın partiyasını ürəkdən dəstəkləyirik"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) 32 saylı Suraxanı üçüncü seçki dairəsindən deputatlığa namizədi Afət Həsənovanın Suraxanı rayonunun Bülbülə qəsəbəsində seçicilərlə görüşü keçirilib.



YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov YAP-ın seçki platforması haqqında məlumat verib. O, seçkilərin əhəmiyyətindən bəhs edərək hər bir seçicini fəal olmağa və layiqli namizədə səs verməyə çağırıb.



Deputatlığa namizəd Afət Həsənova isə çıxışında vurğulayıb ki, bu gün Azərbaycan dövlətinin sosial siyasət sahəsində başlıca məqsədi insana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması və sosial ədalət prinsipinin daim qorunmasıdır: "Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" fikri həyata keçirilən sosialyönümlü siyasətin əsasını təşkil edir. Yeni Azərbaycan Partiyasının Proqramında və seçki platformasında da sosial ədalət və insan amili prinsipi əksini tapıb. Sosial siyasət sahəsində islahatlar davamlı xarakter daşıyır və əhalinin rifahının daha da yaxşılaşması istiqamətində ardıcıl tədbirlərin reallaşdırılması nəzərdə tutulub".

Görüş iştirakçılarından şəhid atası Zaur Əliyev, Ağalar Bayramov və digərləri YAP-ın namizədinə dəstəklərini ifadə ediblər. "Xalqın partiyası olan YAP-ı ürəkdən dəstəkləyirik", - deyə vurğulanıb.

# "Yeni Azərbaycan Partiyasına güvənirik"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Anar Məmmədovun Tərtər rayonunun Xoruzlu və Qaradağlı kəndlərində seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov YAP-ın böyük uğurlara imza atdığını və bu yolda seçkilərə də qələbə əzmi ilə getdiyini söyləyib. O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət xalqımıza böyük nailiyyətlər və möhtəşəm Zəfər qazandırıb.

Çıxış edən deputatlığa namizəd Anar Məmmədov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verərək Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin uğurlarından geniş bəhs edib: "Uğurlarımızın zirvə nöqtəsi 30 ildək Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi - ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpasıdır. Yeni dövrdə qarşıda duran hədəflərin reallaşdırılması Azərbaycanın milli gücünün artmasını təmin edəcək".

Anar Məmmədov çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.



Tədbirdə təşviqat qrupunun üzvləri Elşən Səfərov, Fədail Musayev, Rəşad Şahbazov və Vəsilə Mehdiyeva çıxış edərək yeni qələbələr naminə seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər isə YAP-ın xalqın etimadını doğrultduğunu və ölkəmizin inkişafına layiqli töhfələr verdiyini bildirib, "Yeni Azərbaycan Partiyasına güvənirik", - deyə vurğulayaraq YAP-ın namizədinə səs verəcəklərini söyləyiblər.

# Şanlı Zəfərdən yeni qələbələrə...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 101 saylı Samux-Şəmkir seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Mübariz Qurbanlının Samux rayonunun Sarıqamış, Seyidlər və Qədili kəndlərində seçicilərlə görüşü keçirilib.

YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyasının bu seçkilərə möhtəşəm Zəfərdən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə - Yeni dövrə Yeni Azərbaycanla qatıldığını diqqətə çatdırıb.

Çıxış edən deputatlığa namizəd Mübariz Qurbanlı YAP-ın seçki platforması haqqında məlumat verib. O vurğulayıb ki, YAP-ın yarandığı gündən Azərbaycanın dövlətçilik mənafelərini qətiyyətlə qoruyub, xalqın dəstəyi ilə mühüm uğurlar qazanıb. Ötən illərə nəzər saldıqda əminliklə demək olar ki, partiya öz proqramına uyğun olaraq səmərəli və məqsədyönlü fəaliyyət göstərib.

Tədbirdə, həmçinin görüş iştirakçılarından Zaman Quliyev, Knyaz Əliyev, Elxan Məmmədov, Türkan Babayeva, Aysel Qurbanova və digərləri çıxış ediblər. Qeyd olunub ki, bu gün Azərbaycan yeni reallıqlar fonunda inkişafın növbəti mərhələsinə qədəm qoyub. "Şanlı Zəfərdən yeni qələbələrə doğru inamla addımlayırıq", - deyə vurğulanıb.

Seçicilər isə 1 sentyabr - növbədənkənar parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.



# "Hədəflər reallığa çevrilir"

Azərbaycan Respublikası Milli Məclisinə 2024-cü il sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 125 saylı Zəngilan-Qubadlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş İmamverdi İsmayılovun Sumqayıt şəhərində məskunlaşan zəngilanlı seçicilərlə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.




YAP Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə çıxış edərək Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında seçicilərə ətraflı məlumat verib. O bildirib ki, YAP Azərbaycanın aparıcı siyasi qüvvəsidir.

Deputatlığa namizəd İmamverdi İsmayılov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə getməsindən, parlament seçkilərinin ilk dəfə bütün ölkə ərazisində keçirilməsinin əhəmiyyətindən bəhs edib: "Böyük Qayıdış 30 il ərzində Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən Azərbaycan xalqının ən böyük arzularından idi. Bu gün qürur və iftixarla qeyd edirik ki, Heydər Əliyev yolunun Müzəffər davamçısı İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər nəticəsində soydaşlarımızın arzuları gerçəkliyə çevrilir - Böyük Qayıdış prosesi uğurla reallaşdırılır".

Təşviqat qrupunun üzvləri Məhəmmədəli Qarayev, Polad Məhərrəmov, Fuad Hüseynov və Famil Məmmədəliyev çıxış edərək seçiciləri Azərbaycanın parlaq gələcəyi naminə YAP-ın namizədinə səs verməyə çağırıblar.

Görüşdə çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasınının namizədinə səs verəcəklərini bildiriblər.

# Cəlilabad seçiciləri YAP-ın namizədinə səs verəcəklər

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 72 saylı Cəlilabad kənd seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Elman Nəsirovun rayonun Əliqasımlı və Üçtəpə kəndlərində seçicilərlə görüşləri keçirilib.



YAP Cəlilabad rayon təşkilatının fəalı Ruslan Abbasov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb. O, partiyanın bütün seçkilərə yüksək səviyyədə hazırlaşdığını vurğulayaraq YAP-ın bu dəfə də möhtəşəm qələbə qazanacağına inamını ifadə edib.



Deputatlığa namizəd Elman Nəsirov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib: "Budəfəki parlament seçkiləri ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçiriləcək. Bu, xalqımızın iftixar mənbəyi və dövlətimizin qüdrətinin ifadəsidir. Qürurla qeyd etmək lazımdır ki, Azərbaycana misilsiz qələbələr bəxş edən Heydər Əliyev yolunun zirvə nöqtəsi Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini tam bərpa etməsi, öz gücünü bütün dünyaya nümayiş etdirməsidir".

Görüşlərdə Razi Məmmədov, Lütvəli Quliyev, Vahid Ağayev, Natiq Kazımov, Qurbanxan Diniyev, Adil Hüseynov, Ramil Yarıyev, Əmrah Quliyev, Tofiq Niftiyev və digərləri çıxış edərək seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

# "Zəfər yolunda inamla və qürurla irəliləyirik"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 74 saylı Masallı şəhər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Məşhur Məmmədovun rayonun ziyalı və ağsaqqalları, həmçinin Göyəçöl kəndinin sakinləri ilə görüşü keçirilib.

Görüşdən öncə Göyəçöl şəhidlərinin xatirəsi yad edilib, onların şərəfinə salınan parkda ucaldılan abidənin önünə gül dəstələri düzülüb.

YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında tədbir iştirakçılarına məlumat verib. O qeyd edib ki, Heydər Əliyev siyasəti Azərbaycan xalqına ən dəyərli milli sərvətimiz



olan dövlət müstəqilliyini bəxş edib, ölkəmizin demokratiya və sosial-iqtisadi inkişaf yolunda əmin addımlarla irəliləməsini, beynəlxalq münasibətlər sisteminin nüfuzlu dövlətinə çevrilməsini şərtlənib: "Ulu Öndərin siyasi varisi Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ardıcıl nailiyyətlərə imza atılıb, xalq-iqtidar birliyi daha da möhkəmlənib, Azərbaycan qalib ölkəyə çevrilib".



Çıxış edən deputatlığa namizəd Məşhur Məmmədov seçkilərin ölkəmizin ictimai-siyasi həyatında rolundan danışıb. O bildirib ki, postmüharibə dövründə Prezident İlham Əliyevin apardığı məqsədyönlü daxili və xarici siyasət kursu yeni reallıqlar yaradıb: "Bu gün Zəfər yolunda inamla və qürurla irəliləyirik. İnanırıq ki, sentyabrın 1-də keçiriləcək seçkilər yeni, müasir və müstəqil Azərbaycanın qurucusu olan Ümummilli Lider Heydər Əliyevin ideyalarına, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasətinə xalqın dəstəyinin növbəti təzahürü olacaqdır", - deyə deputatlığa namizəd vurğulayıb.

Görüş iştirakçılarından şəhid anası Mehriban Sultanzadə, Həsənağa Əliyev, Əntiqə Tağıyeva, Vaqif Şükürov, Xudayar Rəhimov və digərləri YAP-ın namizədini dəstəkləyəcəklərini vurğulayıblar.

# "Gücümüz birliyimizdədir!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 103 saylı Şəmkir kənd seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Nurlan Həsənovun Şəmkir rayonunun Bayramlı və Sarıtəpə kəndlərində seçicilərlə görüşü keçirilib.

YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev bildirib ki, müasir müstəqil Azərbaycanın hər bir uğurunda Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu, dünənin, bu günün və gələcəyin partiyası kimi dəyərləndirdiyi, hazırda cənab İlham Əliyevin sədrliyi ilə inkişaf edən Yeni Azərbaycan Partiyasının müstəsna rolu var.

Deputatlığa namizəd Nurlan Həsənov qeyd edib ki, YAP-ın seçki platformasında müxtəlif sahələrin inkişafına dair hədəflər öz əksini tapıb. O bildirib ki, Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın qüdrətinin daha da artmasına hədəflənib: "Hazırda ölkəmizin inkişafına, əhalinin rifahının yüksəlməsinə xidmət edən işlər ardıcıl olaraq həyata keçirilir".

Çıxış edən partiya fəalları Ayaz Orucov, Famil Həmidov, Elvira Allahverdiyeva və digərləri seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar. "Gücümüz birliyimizdədir!", - deyə vurğulanıb.



# "Xalqımız bu dəfə də müdrik seçim edəcək"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 38 saylı Gəncə birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Naqif Həmzəyev Totanlı və Bala Bağban yaşayış massivinin seçiciləri ilə görüşüb.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov çıxış edərək xalqımız qarşısında misilsiz xidmətlər göstərmiş dahi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan bu gün inkişaf yolunda inamla addımladığını diqqətə çatdırıb.

Deputatlığa namizəd Naqif Həmzəyev YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O, Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsindən danışaraq, ölkəmizin təkcə Cənubi Qafqazın lideri deyil, bütün dünyanın ən nüfuzlu dövlətlərindən birinə çevrildiyini qeyd edib.

Tədbirdə təşviqat qrupunun üzvləri Nizami Əhmədov və Əlimuxtar Muxtarov çıxış edərək yeni qələbələr naminə seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar. "Əminik ki, xalqımız bu dəfə də müdrik seçim edəcək", - deyə vurğulanıb.

Qeyd edək ki, deputatlığa namizəd Naqif Həmzəyev Gülüstan qəsəbəsində də seçicilərlə görüş keçirib.



# YAP-ın seçki platforması yeni Azərbaycanın milli yol xəritəsidir



**19 saylı Nərimanov birinci seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Hikmət Məmmədov yap.org.az saytına müsahibə verib**

**- Hikmət müəllim, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Hazırda seçkiqabağı təşviqat kampaniyası davam edir və siz Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi kimi bu prosesdə iştirak edirsiniz. Seçki prosesi haqqında nə deyə bilərsiniz?**

- Hər bir demokratik cəmiyyətdə olduğu kimi, Azərbaycanda da seçkilərin keçirilməsi mühüm hüquqi-siyasi hadisədir. Sentyabrın 1-də Azərbaycan seçiciləri seçkilərdə iştirak edərək növbəti mərhələ üçün ali qanunverici orqanımızın tərkibini formalaşdıracaqlar. Yeni vətəndaşlarımız konstitusiya ilə onlara verilən hüquqlarından istifadə edərək milli demokratiyamızın inkişafı mərhələsində növbəti səhifə açmış olacaqlar.

Nəzərə alsaq ki, VII çağırış parlament seçkilərində 25 siyasi partiya, çoxsaylı bitərəf və müxtəlif sosial qrupları təmsil edən namizədlər iştirak edəcəklər, o zaman deyə bilərik ki, bu seçki həm də ədalətli bir demokratiya yarışı kimi yadda qalacaq. Azərbaycan siyasi sisteminin, demək olar ki, bütün daxili aktorları seçkidə iştirakla bağlı qərar qəbul ediblər və bu müstəqillik dövrü tariximizdə ilk belə hadisədir.

Bilindiyi kimi, Yeni Azərbaycan Partiyası ümumxalq partiyası kimi xarakterizə edilir. Bu, doğrudan da, belədir. Əvvəla, təkcə partiya üzvlərinin statistikasına baxmaqla bunu aydın görmək olar. İkincisi, YAP həm də qələbələr partiyası kimi səciyyələndirilən partiyadır. Bu da səbəbsiz deyil. Çünki siyasi sistemimizə daxil olduğu gündən etibarən istisnasız olaraq bütün seçkiləri qazanıb. Bu iki mühüm komponent, yəni ümumxalq partiyası olmaqla say göstəricisi və qələbələr partiyası olmaqla keyfiyyət göstəricisi, ikisi birlikdə bu seçkilərdə də qələbə əldə etmək üçün yaxşı perspektivlər yaradır. Ancaq şübhəsiz ki, bu faktorlar əsla arxayınlıq üçün səbəb ola bilməz. YAP seçkinin keçirilməsi ilə bağlı qərar qəbul edildikdən dərhal sonra ilk dəfə seçkiyə getdiyi həyəcan və məsuliyyətlə seçki hazırlığına başlayıb və düşünürəm ki, növbəti qələbə əldə etmək üçün bütün resurslarını səfərbər edə bilib. Ancaq bütün bunlara baxmayaraq, partiyamız ən kiçik müxalif partiyanı da kifayət qədər ciddi rəqib hesab edir və öz namizədlərini də müvafiq dəyərləndirmələr əsasında müəyyənləşdirib. Nəzərə almaq lazımdır ki, partiyamızın çox böyük seçki təcrübəsi var. Bütün hallarda, seçkilərin nəticəsi hər şeyi daha dəqiq göstərmiş olacaq.

**- YAP seçkiyə hansı hədəf və çağırışlarla gedir?**

- Yeni Azərbaycan Partiyası 1 sentyabr seçkilərinə “Yeni dövrə Yeni Azərbaycanla” şüarı ilə gedir. Düşünürəm ki, bu şüarda həm partiyamızın keçmiş siyasi fəaliyyəti, həm xalqımız qarşısında hesabatı, həm də gələcək hədəfləri öz əksini tapıb. Partiyamızın qurucusu və xalqımızın Ümummilli Lideri, böyük dövlət xadimi Heydər Əliyev YAP-ı yaradarkən onun adını məhz Yeni Azərbaycan kimi müəyyənləşdirmişdi. Doğrudan da, YAP, sözün əsl mənasında, tamamilə yeni bir Azərbaycan yarada bildi. Bu, vətəndaş müharibəsindən, dövlətçilik böhranından, etnik və regional separatçılıqdan, torpaqlarının işğalından, acı məğlubiyyət və soyqırımından, səfalətdən qurtarılmış, tarixi Zəfərə müvəffəq olmuş, suveren hüquqları və ərazi bütövlüyünü bərpa edilmiş dövlətə çevrilən yeni Azərbaycandır! Xalqımız olduqca böyük itkilər verib, əzab və məşəqqətlərə düçar edilib, 30 il gözləməli olub və nəhayət, Prezident, Müzəffər Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi altında misli-bərabəri olmayan böyük bir tarixi Zəfərə qovuşub.

2020-ci ildən sonra dövlətçilik tariximizdə başlayan yeni dövr daha güclü və sosial-iqtisadi baxımdan daha inkişaf etmiş qüdrətli bir Azərbaycan üçün tarixi şanslar və perspektivlər yaradıb. “Yeni dövrə Yeni Azərbaycanla!” fəlsəfəsi də bu perspektiv və imkanları həyata keçirmək vəzifəsinin məsuliyyəti kimi izah edilməlidir. Yəni yeni dövrü elə Yeni Azərbaycan Partiyası və onun liderləri yaradıb. Ulu öndər Heydər Əliyev dövlətçiliyimizin, milli ideologiyamızın, milli sosial identikliyimizin və xarici siyasətimizin yeni əsaslarını yaratmaqla, Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyev isə bu əsaslar üzərində xalqımızı 200 illik əsarətdən, 30 illik işğaldan qurtarıb bugünkü yeni reallıqlarımıza çatdırmaqla bəhs etdiyimiz yeni dövrü təmin edib. Dolayısı ilə milli inkişafımızın yeni dövrü YAP-ın adı ilə bağlı olduğu kimi, xalqımızın modern inkişaf mərhələsi də Yeni Azərbaycan Partiyasının adı ilə bağlı olacaq. Burada həm ideoloji-siyasi, həm də milli-mənəvi və iqtisadi varislilik prinsipi davam etdiriləcək. Beləliklə, xalqımızın neokonservativ dünyagörüşü və siyasi dəyərlərini formalaşdıran Yeni Azərbaycan Partiyası onu postmodernist cəmiyyətə transformasiya edə biləcək. Bunlar isə milli maraqlarımızın təmin olunması baxımından strateji vəzifələrdir.

**- YAP-ın seçki platformasında dövlət siyasətinin prioritetlərindən irəli gələn milli hədəflərimizlə bağlı konkret vəzifələr əks olunub. Bununla əlaqədar fikirləriniz nədən ibarətdir?**

- Partiyamızın seçki platforması bugünkü yeni tarixi reallıqlar və onun şərtləndirdiyi yeni çağırışlar, milli vəzifələr əsasında formalaşdırılıb. Bu sırada, əlbəttə ki, ilk növbədə milli və dövlət təhlükəsizliyimizlə bağlı məsələlər əsas vəzifə və məqsəd kimi müəyyənləşdirilib. Ancaq şübhəsiz ki, bütün alt komponentləri ilə birlikdə. Məsələn, YAP-ın platformasında fərdin, millətin və dövlətin təhlükəsizliyinin təmin olunması ardıcıllığı var. Burada fərd-cəmiyyət-dövlət üçbucağı komplementar olaraq vahid tamın tərkib hissəsi kimi müəyyənləşdirilir. Yəni milli təhlükəsizliyimiz kompleks olaraq bir bütöv kimi nəzərdən keçirilir və onun təmin olunmasının ideoloji, siyasi, sosial, informativ, hərbi, iqtisadi və s. komponentləri ayrıca verilir. Başqa bir prioritet istiqamət kimi xarici siyasət və beynəlxalq münasibətlər sistemində ölkəmizin yeri və rolu məsələləri müəyyənləşdirilir. Həmçinin islahatlar, sosial rifah, milli-mənəvi dəyərlərimizin qorunması, elm və təhsilin inkişafı məsələləri ayrıca olaraq başlıca vəzifələr kimi qeyd edilir və s.

Müasir cəmiyyətin səciyyəvi problemlərinə isə xüsusi yer ayrılır. Buraya informasiya manipulyasiyasından tutmuş, informasiya müharibəsinə qədər çox sayda məsələlər daxildir. Bütün bunlar həm də istənilən siyasi prosesdə maarifləndirmə məqsədlərinin realizə olunması üçündür. Ümumiyyətlə, partiyamızın seçki platforması, əslində, Azərbaycan xalqının və seçicilərimizin görmək istədiyi gələcək yeni Azərbaycana gedən milli yol xəritəmiz kimi səciyyələndirilə bilər.

# “İnamımız sarsılmaz, mövqeyimiz dəyişməzdir!”

Sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 112 saylı Zaqatala seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Asif Əsgərovun rayonun Aşağı Tala və Yuxarı Tala kəndlərində seçicilərlə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Zaqatala rayon təşkilatının sədri Fərid Ramazanov Azərbaycanın dünyada nüfuzlu, qüdrətli və qalib dövlət kimi tanındığını söyləyib. O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycana daha möhtəşəm nailiyyətlər qazandıracaq.

Çıxış edən deputatlığa namizəd Asif Əsgərov əvvəlcə Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər xalqımızın qəhrəmanlıq tarixinə əbədi həkk olunub: “Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev uzun müddət işğal altında olan torpaqlarımızın azad edilməsinə nail olmaqla ata vəsiyyətini, Vətənə sədaqət andını, xalqa vədini şərəflə yerinə yetirmişdir. Bu gün qalib ölkənin vətəndaşları kimi qürurla yaşayırıq”.

Tədbirdə təşviqat qrupunun üzvü Tahir Məmmədov, şəhid anası Züleyxa Davudova, Ömər Ömərov və digərləri çıxış edərək bildiriblər ki, YAP ümumxalq və qələbələr partiyası kimi yüksək nüfuza malikdir: “Şübhə yoxdur ki, sentyabrın 1-də keçiriləcək parlament seçkilərində də YAP-ın namizədləri inamlı qələbə qazanacaqlar. İnamımız sarsılmaz, mövqeyimiz dəyişməzdir!”, - deyə vurğulanıb.



Görüşdə çıxış edən seçicilər YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

# “Yaşıl enerji” istehsalında rekord...

## 2024-cü ilin 7 ayında bərpa olunan enerjinin payı ümumi elektrik enerjisi istehsalında 15 faizi ötüb

2024-cü ilin yanvar-iyul aylarında Azərbaycanda “yaşıl enerji” güclərinin istehsal həcmi 1 milyard kVt·st-dan çox artıb. Belə ki, qeyd olunan dövrdə “yaşıl hidrogen” mənbəyi olan su elektrik stansiyalarında (SES) 1 milyard 867,3 milyon kVt·st, külək elektrik stansiyalarında 33,3 milyon kVt·st, Günəş elektrik stansiyalarında 352 milyon kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 152,7 milyon kVt·st elektrik enerjisi istehsal edilib. Beləliklə, “yaşıl enerji” mənbələri üzrə elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1 milyard 77,6 milyon kVt·st artaraq 2,4 milyard kVt·st təşkil edib. Müqayisə üçün qeyd edək ki, 2023-cü ilin yanvar-iyul aylarında yaşıl güclər üzrə istehsal həcmi 1,3 milyard kVt·st-a bərabər olmuşdu. Cəmi bir il ərzində “yaşıl enerji” istehsalının 80 faiz və ya 1 milyard Kvt-st-dan çox artması rekord göstərici olmaqla Azərbaycanın “yaşıl enerji” strategiyasının gözlənildiyindən də uğurla həyata keçirilməsindən xəbər verir.

Bu rəqəmlər “yaşıl güclərin” ümumi enerji istehsalında payının durmadan artmasını da şərtləndirir. Əgər əvvəllər ölkə üzrə enerji istehsalında bərpa olunan enerji mənbələrinin payı 10 faizdən aşağı idisə hazırda bu göstərici 15 faizi ötüb. Belə ki, 2024-cü ilin yanvar-iyul ayları üzrə Azərbaycanda ümumilikdə 16,2 Kvt-st elektrik enerjisi istehsal olunub ki, onun 15,2 faizi “yaşıl enerji” mənbələrinin payına düşür. Bu, bir daha Azərbaycanda bərpa olunan enerji növlərinin hər birində dayanıqlı artımın baş verdiyini göstərir və yaxın 5 il ərzində “yaşıl enerji” gücünün cəmi enerji istehsalında 25 faizi ötəcəyini əsaslandırır. Mövcud ssenari hökumətin 2030-cu ilə qədər elektrik enerjisində bərpa olunan enerjinin payının 30 faizə çatdırmaq planlarının vaxtından əvvəl yerinə yetiriləcəyinə də işarə edir. Yaxın 6-7 ildə bərpa olunan enerji sitehsalının təxminən 5 milyard Kvt-st-a çatacağı proqnozlaşdırılır ki, bu da cəmi enerji hasilatının təxminən 34 faizi deməkdir. Göründüyü kimi Azərbaycan “yaşıl enerji” gücünü artırmaqla bölgədə yeni enerji arxitekturasını da möhkəmləndirir.

Azərbaycanın “yaşıl enerji” potensialı qiymətləndirmələrə əsasən, quruda 135 QVt, dənizdə 157 QVt proqnozlaşdırılır.Təkcə, Qarabağ və Şərqi Zəngəzur bölgəsində hidroenerji, külək və Günəş enerjisi, termal su mənbələrinin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır. Hidroenerji ehtiyatlarına görə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur. İndiyə qədər bu ərazilərdə 10 ədəd kiçik su elektrik stansiyası inşa edilərək istifadəyə verilib, digər hidrogen infrastrukturlarının yaradılması işləri davam etdirilir. Ümumilikdə, 2 il ərzində Qarabağ və



Şərqi Zəngəzurda 12 yerdə ekoloji cəhətdən təmiz “yaşıl enerji” istehsal edəcək su elektrik stansiyalarının tikintisinin başa çatdırılması nəzərdə tutulub. Bu isə bu bölgədə bərpa olunan təmiz enerjinin gücünün 1 QVt-ı ötməsinə səbəb olacaq.

Azərbaycan hökuməti “yaşıl enerji” sektorunda istehsalın artırılması üçün beynəlxalq koalisiya ilə sıx əməkdaşlıq qurub və son 2 ildə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, Səudiyyə Ərəbistanının “ACWA Power”, Böyük Britaniyanın “bp”, Avstraliyanın “Fortescue Future Industries”, Yaponiyanın “TEPSCO”, İtaliyanın “Maire Tecnimont”, Çinin “China Gezhouba Group Overseas Investment”, Fransanın “Total Energies” və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalanıb. Ümumilikdə, Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə “yaşıl enerji” sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb. Bundan başqa, Azərbaycanda Dünya Bankı (DB) , Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) , Asiya İnkişaf Bankı (AİB) kimi beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələr həyata keçirilir. AYİB 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının inşasına kreditlər ayıracaq. 2 ay əvvəl Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Masdar” şirkəti ilə maliyyə tutumu 1 milyard dollar olan müqavilələrin imzalanması isə “yaşıl enerji” hərəkatında yeni dalğanın başlanğıcı sayıla bilər. Bu, yeni enerji sərmayələrinin açar sazişi kimi digər çoxhəcmli investisiyalar üçün əsaslı zəmin deməkdir. Həmin sərmayə proqramının davamı kimi digər potensial investorlarla daha iritutumlu “yaşıl sərmayələr”in qoyuluşuna dair ilkin razılaşmalar da əldə edilib. Məsələn, Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti qarşıdakı illərdə ölkəmizin yaşıl güclərinə 5 milyard dollara yaxın investisiya yatırmaq niyyətini bəyan edib.

Beləliklə, Azərbaycanda “yaşıl enerji” istehsalının əhəmiyyətli dərəcədə artması bu enerji resurslarının nəqli üçün də dayanıqlı mənbə formalaşdırır. “Yaşıl enerji” siyasətinin əsas istiqamətlərindən biri kimi yaxın illərdə ixracın şaxələndirilməsi də əsas prioritetdir. Həmin istiqamət üzrə fundamental hüquqi baza yaradılıb, hazırda yaşıl infrastrukturların qurulması işləri sürətlə icra olunur. “Yaşıl enerji”nin ixracını təmin edəcək “Mərkəzi Asiya -Xəzər-Qara dəniz-Avropa” dəhlizinin yaradılması ilə bağlı niyyət razılaşmaları imzalanıb və yaxın aylarda Avropa ölkələri ilə birlikdə çoxtərəfli beynəlxalq sazişin imzalanması nəzərdə tutulur.

*ELBRUS CƏFƏRLİ*

# YAZIMIZ, DİLİMİZ...

“Yazımız, dilimiz, “İkinci il”imiz”...

Uşaq ədəbiyyatına dair ciddi nəzəri ümumiləşdirmələri, prinsipial yanaşmaları ilə seçilən bu məqalə bütünlükdə humanitar düşüncə sistemimizin bir çox məqamlarına işıq salır.

Məqalənin ərsəyə gəlmə tarixi məlumdur. XX əsrin əvvəllərində - İkinci müəllimlər qurultayından sonra müəyyən dərsliklər çap olunmağa başladı. Bu dərsliklərdən birinin tərtibində M. Mahmudbəyov, S. Əbdürrəhmanbəyzadə, F. Ağazadə, A. Talıbzadə, A. Əfəndizadə, Süleyman Sani Axundov iştirak etmişdir. “İkinci il” adlanan bu dərslik 1908-ci ildə Bakıda nəşr edilmişdir. Şəhərin pedaqoji ictimaiyyəti, ümumiyyətlə, ziyalıların ciddi maraqla qarşıladığı “İkinci il”i Süleyman Sani Axundov “inqilabvari dərslik” adlandırmışdır və bu, zənnimizcə dərsliyin ictimaiyyət arasında doğurduğu güclü əks-səda ilə bağlı idi. Tədqiqatçı Nadir Vəlixanov yazır: “Bu dərslik Azərbaycan pedaqoji fikir tarixində yeni mütərəqqi hadisə olmuşdur. “İkinci il”in müəllifləri yenicə oxuyub yazmağa başlayan azərbaycanlı balaların təlim-tərbiyəsinə aid fikirləri sadə, aydın dillə qələmə almağı qarşıya əsas məqsəd qoymuşdular. Məhz buna görə dərsliyin müəllifləri böyük şairimiz M. Ə. Sabirin, A. Səhhətin, A. Şaiqin uşaq təfəkkürünün asan qavraya bilməsinə uyğun, uşaq yaddaşında nəqş sala bilən, balaca oxucunun zövqünü oxşayan şeirlərindən də nümunə verirdilər. Bununla dərsliyin müəllifləri mollaxanalarda uşaqları ərəb, fars ibarələri ilə danışmağa məcbur edən savadsız müəllimlərə qarşı zidd cəbhə tuturdular. Dərslikdə klassik rus ədəbiyyatından uşaqların təlim-tərbiyəsinə aid yazılan əsərlərin tərcümələrindən verilməsi də bu əsərin mütərəqqi xüsusiyyətlərindən idi.

Bu məziyyətlərinə görə “İkinci il” dərsliyini o dövrün bir sıra ziyalıları rəğbət və razılıqla qarşılamışdılar. Gənc müəllim və publisist Ü.Hacıbəyov “Tərəqqi” qəzetində çap etdirdiyi rəyində yazırdı: “İkinci il”in müəllifləri dərsləri üsuli-təbii üzrə düzmüşlər... Birinci dərsləri məktəb və məktəb şeylərinə dair olub və sonra evə, külfətə, ev heyvanlarına, quşlarına, həyətə, sonra bağa, bostana və ondan sonra meşəyə və çöl heyvanlarına dairdir... Söz yoxdur ki, yuxarıda zikr olunmuş şeylər quru bir istedad və təzkardan ibarət olmayıb, bəlkə, gözəl söhbətlər və hekayələr şəklində yazılıb... Xüsusiyyətə gəldikdə “İkinci il” tərbiyə işlərində uşaqların həm qəlbini, həm ağlını və həm də zövqünü tərbiyə edəcək dərslər intixab etmişdir. Məsələn, hekayələr vardır ki, uşaqlarda riqqəti-qəlb, sədaqət, məhəbbət və bu kimi hisslərin tərbiyəsinə xidmət edir. Məsələn, yoldaşlıq, pinti uşaq, növbətlə məktəbə getmək və s. Bəzi hekayə və söhbətlər var ki, uşaqların biliyini artırıb ağlını tərbiyə edir. Məsələn, kitab, kağız və s. Bəzi hekayə var ki, uşaqlarda gözəl zövq tərbiyə edir ki, burasına indiyə qədər diqqət yetirən bir müəllif olmayıbdır. Məsələn, “Bizim ev” hekayəsi gözəl bir evin nümuneyi-timsalını göstərir, planı dəxi çəkilmişdir”.

Bütün keyfiyyətlərinə baxmayaraq, “İkinci il” dərsliyi haqqında əks fikir səsləndirənlər də oldu. O zaman Bakıda “Səadət” məktəbində müdür və müəllim işləyən Əli bəy Hüseynzadə bu dərsliyi narazılıqla qarşılayaraq, 1909-cu ildə “Tərəqqi” qəzetində haqqında tənqidi məqalə yazdı. “Yazımız, dilimiz, “İkinci il”imiz” adlanan həmin məqalədə Ə.Hüseynzadə dərslik müəlliflərinin imla qaydalarına dair təkliflərini rədd edir, əlifbanın dəyişdirilməsinə etirazını bildirərək yazırdı: “Tərəqqiyatımızın maneələrini əlifbamızda görərək yazımızı, imlamızı islaha qalxışanların Kiril və Mefodinin uydurduğu rus əlifbasından başqa bir şeyə etibar etdikləri yox, bunların əksəri ingilis əlifbasından bixəbərdilər! Halbuki ingilislər o imlayi-əcibləri ilə Avropa və Amerikada, yaponlar o heroqliflərlə Asiyada mədəniyyətin ovci-balasına vasil olmamışdılarmı? Təməddündə, tərəqqidə onlarla kim rəqabət edə bilər?”.

Ə.Hüseynzadə “İkinci il” kitabının sərfindən və nəhvindən (yəni morfalogiyasından və sintaksisindən) narazı qaldığını, onların çox qüsurlu olduğunu bildirərək yazırdı: “Sözümüz “İkinci il”in qəvaidi-sərfiyyəyə (morfoloji qaydalara- E.A.) rəayətsizliyi haqqındadır. Bu qüsurları yenə bir dərəcəyə qədər düzəltmək mümkündür, lakin nəhvə (sintaksisə - E.A.), şeirə, inşayə, üslubi-ifadəyə, fəsahətə mütəəlliq nöqsanlara nə yapacağıq” ?!..

Ə.Hüseynzadə kitabdakı bədii nümunələrin düzgün seçilmədiyini bildirərək yazırdı: “İkinci il”in nə şeirində, nə də nəsrində ədəbiyyat nümunələrindən məşahiri-üdəbanın ətfala məxsus kəlamından belə əsər yoxdur”. O, Abbas Səhhətin “Quşlar” şeirindən aşağıdakı misraları nümunə verib yazırdı:

*Qaranquşlar, a quşlar!*
*Cəh-cəh vurun buradə,*
*Gah yerdə, gah yuvadə*
*Qonun bu tək budağə*
*Çox getməyin uzagə...*

“Səhhətin bu nəzmi qətiyyən səhhətikəlamdan xaricdir! O biri sözlər də həp böylə! Anlamıyoram ki, bizim burada müəllimlərin də, müəlliflərin də cığatay və osmanlı ədəbiyyatına qarşı bu inadı nə üçündür? Canım, osmanlı əşar və ədəbiyyatında öylə nümunələr vardır ki, sizin bu kibi şeirlərinizdən daha türkcə, daha azərbaycanca və qafqazcadır. Halbuki, ibarələrində də heç bir qüsur yoxdur!”.

Ə. Hüseynzadə Abbas Səhhət, Abdulla Şaiq kimi şairlərin şeirlərinin əvəzinə dərslikdə Osmanlı şairlərindən Tofiq Fikrət, Abdulla Cövdətin şeirlərindən nümunələr verilməsini daha müvafiq hesab edirdi. Tənqidçi bu fikirləri söyləyərkən dərslikdəki nümunələrin bədii-estetik cəhətdən zəif olmasına əsaslanırdı. Əlbəttə “İkinci il”in müəllifləri dərslik üçün nümunələr seçərkən dilin sadəliyini, uşaqların qavrama qabiliyyətini, çətin alınma sözlərə yer verməmək prinsipinə əsaslanırdılar. Ə.Hüseynzadə isə məzmun və ifadə gözəlliyini əsas götürürdü. O, seçilən mətndə bir-iki çətin sözün işlənməsini heç də qüsur saymırdı. Tənqidçiyə görə mətndə bir-iki ərəb-fars sözlərinin işlənməsi zərərli deyil. Əksinə, uşaqlar həmin sözlərin mənasını öyrənməklə öz bilik dairələrini daha da genişləndirəcəklər. Ə. Hüseynzadə yazırdı: “Amma müntəxabat böylə şeylərdən (mətndə fars-ərəb sözləri olan şeirlər nəzərdə tutulur - E.A.) ibarət olursa, cocuqlar ara-sıra türki, farsi, ərəbi bir çox bilmədikləri kəlmələrə rast gələcəklərmiş! Nə zərəri var! Daha iyi deyilmi, “Aşiyan edirdi”, ya “oxuyurdu nəğmələr xoş” kibi qələti-fahiş ibarələr ilə bənləyəcəyinə, bilmədikləri düzgün sözləri öyrənsinlər və yalnız tərcümələr vasitəsilə özgələrin əfkar və təsvirati-ədəbiyyəsilə tərbiyələnəcəyinə yavaş-yavaş türkün öz ədəbiyyatı-milliyyəsini, öz üdabəyi-həqiqiyəsini bir az tanısınlar?”

Əli bəy Hüseynzadənin tənqidlərində həqiqət olduğu danılmazdır. Doğrudan da, onun bəyənmədiyi aşağıdakı bənddə şeiriyyət çox zəif idi:

*Göy bağçada dallar üzrə bir quş*
*Çör-çöp yığıb aşiyan edirdi.*
*Gahi oxuyordi nəğmələr xoş*
*Gahi uçub ot-saman çəkirdi.*

Tənqidçi öz narazılığını bildirərkən bu sətirləri nümunə gətirib yazırdı: “Aşiyan edirdi” ibarəsi düzmü” və hələ əvvəli də farsi olan bu “aşiyan” kəlməsi insanı aldadır!Ancaq onun yerinə “yuvə” qoyunuz, baxınız nə olur? Bütün küreyi-ərz üzərində hansı türk, “yuvə edirdi”, ev edirdi, ya “məktəb ediyordu” deyir? Sonra “saman çəkirdi”, nə? Quş samanı araba iləmi çəkirdi?.. Gahi, gahi yerinə gah, gah denilməzmi? “Əhməd alırdı almalar qırmızı” ibarəsi də düzmi olur? Halbuki, “Səadət məktəbi”nin ibtidai sinif şagirdləri də bilirlər ki, türkcədə sifət isimdən əvvəl gəlir...”.

Ancaq bu haqlı iradlara sonralar birtərəfli yanaşan, yaxud onun əsl mahiyyətini təhrif edən bəzi ədəbiyyatşünaslar və ictimai-fəlsəfi fikir tədqiqatçıları Ə.Hüseynzadəni guya milli ədəbiyyatı danmaqda, uşaqlar üçün yazılan əsərləri qiymətləndirə bilməməkdə günahlandırmışlar. XX əsr Azərbaycan ədəbiyyatının tədqiqatçısı Y.İsmayılov 1960-cı illərin əvvəllərində çap etdirdiyi bir monoqrafiyasında yazırdı: “ ədəbiyyatın ilk ünsüri” (M.Qorki) sayılan dildə sadəlik, səlislik, yığcamlıq, aydınlıq... uşaqlara məxsus əsər üçün elə zəruri şərtlərdir ki, bunsuz keçinmək və müvəffəqiyyət qazanmaq olmaz. Şaiq uşaqlar üçün yazdığı əsərlərində bu cəhətə daha çox əhəmiyyət vermişdir. Lakin XX əsrin əvvəllərində sadə dildə meydana çıxan əsərlər mürtəce ziyalıların, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev kimi burjua ideoloqlarının xoşuna gəlmir, onların istehzası ilə qarşılanırdı. Onlar nəinki uşaq ədəbiyyatının böyük tərbiyəvi əhəmiyyətini düzgün qiymətləndirmir, ümumiyyətə dil sahəsində mürtəce mövqe tutur, türkləşdirmə siyasəti yeridirdilər...

Ə. Hüseynzadə altı müəllifin müştərək hazırladığı “İkinci il” kimi , əsasən müsbət xüsusiyyətləri ilə diqqəti cəlb edən və tədris sahəsində faydalı xidməti olan bir dərsliyi də pis qarşılamış, “Yazımız, dilimiz, “İkinci ilimiz” adlı məqaləsində həm kitabı, həm də Səhhətin, Şaiqin uşaqların anlayışına, səviyyəsinə uyğun tərzdə, sadə dildə yazılıb orada çap edilmiş şeirlərini tənqid etmişdi. Hər iki müəllifin Azərbaycan dilindəki şeirlərini “türk dilinin qanunlarını pozan” əsərlər adlandırmışdır”.

Belə birtərəfli, yanlış mülahizələr akademik Kamal Talıbzadənin 1960-cı illərdə çap olunmuş “XX əsr Azərbaycan ədəbi tənqidi” monoqrafiyasının da səhifələrində yer alırdı. Müəllif yazırdı: “Ə. Hüseynzadə Azərbaycan şairlərinin “İkinci il” dərsliyində çap olunmuş şeirlərinə istehza edərək, onları “türk dilinin qanunlarını pozan” əsərlər adlandırırdı. O, Azərbaycan ədəbiyyatı nümunələri əvəzinə dərsliyə Osmanlı ədəbiyyatı nümunələrini daxil etməyi tələb edirdi”.

K.Talıbzadə sonralar çap etdirdiyi “Azərbaycan ədəbi tənqidinin tarixi” monoqrafiyasında fikirlərini bir qədər yumşaltmış, bunu sənət baxımından hasilə gələn mövqe kimi dəyərləndirmişdir: “Yazımız, dilimiz, “İkinci ilimiz” məqaləsində Ə.Hüseynzadənin əlifba uğrundakı mübarizəsinə yanlış qiymət verməsi, Səhhətin, Şaiqin şerlərini tənqid etməsi də belə qənaətlərlə (yəni “sənət sənət üçündür” fikirləri ilə - E.A.) bağlı idi”.

Ə.Hüseynzadənin “İkinci il” dərsliyi barədə fikirlərinə birtərəfli və tendensiyalı yanaşma ənənəsi 1980-cı illərin də ədəbi-fəlsəfi və ictimai-pedaqoji fikrində davam edirdi. Həmin dərsliyin həmmüəllifi olmuş Fərhad Ağazadə haqqında yaxşı bir kitab yazmış Əjdər Ağayev sələflərinin fikir və mülahizələrini başqa sözlərlə təkrar edirdi: “Pantürküstlərin başçıları Ə.Hüseynzadə, Ə.Ağayev və başqaları məktəb proqramının yaxşılaşdırılması, tədris planına dünyəvi elmlərin daxil edilməsi və ana dilində dərslər hazırlanması işinə hər cür maneə törədirdilər. Xüsusilə, Ə.Hüseynzadə Azərbaycan dilini “kobud”, “kasıb” dil adlandıraraq, dərslikləri osmanlı dilində yazmağı tələb edirdi. 1909-cu ildə “Tərəqqi” qəzeti səhifələrində “İkinci il” dərsliyi ilə əlaqədar açılmış mübahisədə bu məsələ öz əksini geniş şəkildə tapırdı”.

Tədqiqatçılar Ə.Hüseynzadənin “Yazımız, dilimiz, “İkinci ilimiz” məqaləsindəki fikirlərə, o cümlədən uşaq şeirləri haqqında söylədiyi mülahizələrə münasibət bildirərkən guya C.Məmmədquluzadənin mövqeyindən çıxış edir, öz fikirlərini əsaslandırmaq üçün “Zəncir” felyetonuna söykənirdilər. Qeyd edirdilər ki, C.Məmmədquluzadə “Ə. Hüseynzadənin fikirlərini maddə-maddə tənqid edərək, bu fikirlərə “özünəməxsus kinayə ilə” yanaşmışdır. Halbuki, “Zəncir” felyetonunda Ə.Hüseynzadənin uşaq ədəbiyyatına, eləcə də bədii nümunələr haqqında fikirlərinə dair heç nə yoxdur. Ədəbiyyatşünas Abbas Zamanovun “Əməl dostları” monoqrafiyasında Cəlil Məmmədquluzadənin bu barədə mövqeyi aydın meydana qoyulub. Böyük ədib Azərbaycan əlifbasının dəyişdirilməsi barədə fikirlərinə narazılığını bildirəndən sonra yazır: “Biz özümüzü borclu bilirik bunu da deyək ki, “İkinci il” kitabının Hüseynzadə kimi bir ədibin tərəfindən tənqid olmasına biz, kitab sahibləri ilə bir yerdə hər halda təşəkkür etməliyik və haman tənqiddə göstərilən qüsurların bir neçəsini təsqid eləyirik... Lakin ümidvarıq ki, yoldaşımız Nemanzadənin bu xüsusda dəxi təfsilli cavabını oxucularımız “Tərəqqi”də oxuyalar”.

Əlbəttə, sadə və asan yazmaq o dövrün ediblərini düşündürən məsələlər idi. Uşaq kitabları, ilk anadilli dərsliklər, oxu kitablarının nəşrində ilkin olaraq bu amilə əsaslanırdılar. Hətta Firidun bəy Köçərli Abdulla Şaiqə ünvanladığı məktublarının birində Şaiqin ona göndərdiyi, 1911-1915-ci il aralığında çap olunmuş kitablardakı əsərlərin məziyyətlərini qeyd edib yazırdı: “Göndərdiyiniz kitabçalar yetişdi və məni artıq dərəcədə xoşhal etdi. Bu qism sadə dildə yazılmış və məalı öz məişətimizdən götürülmüş əsərlər yenicə başlayır meydana gəlməyə. Ona binaən xırdaca uşaqlar üçün yazılan nağıl və hekayələr nə qədər asan və sadə olsa, nə qədər açıq dildə yazılsa və uşaqların fəhminə yaxın olsa, bir o qədər mənzurda (nəzərdə- E.A.) olan məktəblər artıq dərəcədə hasilə gəlib, yaxşı meyvələr gətirər”.

Bu tələbatı Əli bəy Hüseynzadə də bilirdi, sadəcə sadəliklə bəsitliyi qarışdırmırdı, sadəlik adı altında uşaqlara bayağı mətnlərin təqdim olunmasını qəbul etmirdi. Daha böyük tələb və ölçülərdən yanaşırdı. Ə.Hüseynzadənin Azərbaycan dilini guya “kasıb”, “kobud” dil adlandırması barədə deyilənlər isə əsassız səciyyə daşıyır. Çünki ədibin “Yazımız, dilimiz, “İkinci ilimiz” məqaləsində belə fikir yoxdur. Düzdür, onun dillə bağlı sabit, dəyişməz konsepsiyası vardı. Azər Turan “Əli bəy Hüseynzadə” kitabında türk sosioloqu Hilmi Ziya Ülkenin “Yazımız, dilimiz, “İkinci il”imiz məqaləsi barədə irəli sürdüyü “Hüseynzadənin şiddətlə hücum etdiyi fonetik yazı şəkli türk ləhcələrinə uyğulandığı zamandan bəri ədəbi dil parçalanmışdır” mülahizəsini şərh edərkən bildirir ki: “Əli bəy Hüseynzadə bütün türklərin anlayacağı ortaq ədəbi türkcənin tərəfindəydi. Azərbaycan ədəbi dili də Hüseynzadəyə görə həmin dil sisteminin tərkibində intişar tapmalıydı”.

Ə.Hüseynzadənin yeni dərslik, orada verilən nümunələr haqqında fikirlərini də onun ədəbi görüşlərinin, bədii dünyagörüşünün ümumi kontekstində təhlil edib qiymətləndirmək lazımdır. Bu baxımdan, “Füyuzat ədəbi məktəbi” kitabının müəllifi Şamil Vəliyevin fikirlərinə diqqət edək: “Ə.Hüseynzadə “öz keyfinə tabe bədayepərvər bir adam” olduğunu boynuna alaraq sənətin qanunauyğunluqlarını ədəbi-nəzəri görüşlərində hər şeydən uca tuturdusa da mövcud gerçəklik və bədii təfəkkür münasibətlərində qarşılıqlı əlaqəni də unutmur, həyatı sənətin mənbəyi kimi qiymətləndirirdi. Yəni tənqidçi yalnız “sənət sənət üçündür” prinsipi ilə məhdudlaşmır, eyni zamanda həyatdan doğan ədəbiyyatın fövqəlbəşəriliyinə inanır və “sənət sənət üçün olanda xalq üçün olur”- fikrinə arxalanır, antisənəti naqis “sənət nümunəsini” isə kəskin tənqid hədəfinə çevirirdi”. Digər ədəbiyyatşünas Zaman Əsgərli də həmkarı ilə eyni qənaəti bölüşür: “İkinci il” dərsliyindəki uşaqlar üçün şeir nümunələrinə Əli bəy Hüseynzadə “sənət sənət üçündür” prinsipi, yaxud romantik poeziyanın yüksək estetik tələbləri baxımından yanaşırdı”.

Bəli, məhz bu mövqedən yanaşdığı üçün “Quşlar”, “Payız”, “Yay səhəri” kimi mənzumələr ona bədii cəhətdən zəif, sönük görünürdü. Ə.Hüseynzadə tənqidi fikirlərini “İkinci il”in səhifələrində getmiş şeirlər əsasında söyləyirdi. O, kitabda dərc olunmuş hekayələr haqqında söhbət açmırdı. Ancaq bütövlükdə, bədii əsərdən “bəlağət və fəsahət” tələb edirdi. Ona görə “İkinci il” müəlliflərindən biri - M.Mahmudbəyov Əli bəyin fikirlərinə etiraz edərək yazırdı: “Əlifba təlimindən sonra oxunan birinci kitabda nə fəsahət, nə ədəbiyyat nümunələri?.. Fəsahət, bəlağət, filan böylə kitablarda olmaz. İlk qiraət üçün sadəcə asan ibarəli, düzgün hekayələr lazımdır”.

Bir dəfə uşaq jurnalı kimi çıxan bir nəşrdəki hərf səhvlərini qüsur kimi göstərib irad tutanda baş redaktor inciyib dedi ki, “Elnarə xanım, siz bilirsiz mən o jurnalı necə çətinliklə çıxarıram?!...” Bu əlbəttə ki, cavab deyildi. Unutmayaq ki, sözlərin yazılışında səhvlərə yol verilməsi hələ yazıb oxumağa yenicə başlayan uşaq üçün yanlış yönləndirmə ola bilər. O cümlədən, verilən mətnlərin bədii-estetik keyfiyyət baxımından ürəkaçan olmaması da dərslik səviyyəsinə, görülən böyük işə xələl gətirən amillərdir.

Bu yazını yazdığım günlərdə tarixçi alim Həsən Həsənovun “Ərəbcə - əlifba, latınca - alfabe, türkcə - bitiq?” məqaləsinə görkəmli ədəbiyyatşünas alim Vilayət Quliyevin cavab təriqi ilə yazdığı “Yenilikdən qorxmağa dəyməz” məqaləsini oxudum. Polemik ruhu və filoloji çağırışları ilə seçilən bu məqalədə Vilayət Quliyev tarixçi alimin “tədricən ortaq əlifbaya keçməyi hədəfləyən türk xalqlarının öz yazı sistemini türk dünyasının ilk böyük filoloqu Mahmud Kaşğarinin məşhur “Divani-lüğət-it-türk” əsərində “hərf”, “yazı”, “kitab” mənasını bildirən “bitiq/bitik” adlandırmağı təklif edən, yəni “Ortaq Türk Alfabesi” yerinə “Ortaq Türk Bitiqləri/Bitikləri” istilahının işlənməsini daha məqsədəuyğun saydığını” bildirən qeydlərini nəzərə çatdırdıqdan sonra özünün “ortaq türk yazısı” qənaəti üzərində dayanır və Əli bəy Hüseynzadənin məlum sözü gedən məqaləsindəki mövqeyə istinad edir: “Böyük fikir adamı Əli bəy Hüseynzadə də 1909-cu ildə “Tərəqqi” qəzetinin bir neçə sayında çap etdirdiyi “Yazımız, dilimiz. İkinci ilimiz” adlı əlifba, ana dili, imla qaydaları və s. məsələlərdən söz açan silsilə məqalələrində “əlifba” yerinə hər yerdə “yazı” kəlməsini işlətmişdi. Bizim eranın X əsrində Soqdiya əlifbasına əsaslanmaqla öz əlifbalarını yaradan qədim və zəngin mədəni ənənələrə malik uyğur türkləri onu sadəcə “yazı” adlandırmağı daha üstün tutmuşdular və indi də həmin termindən istifadə edirlər. Orxon-Yenisey abidələrində istifadə edilən runik türk əlifbası da müasir türk alimlərinin tədqiqatlarında daha çox “yazı”, yaxud “yazıt” adı altında tanınmaqdadır. Yeri gəlmişkən, “bitiq/bitik” kəlməsinin qarşılığı, yaxud sinonimi kimi “yazı” istilahını Həsən Həsənov da qəbul edir”.

Yeri gəlmişkən, qeyd edim ki, Əli bəy Hüseynzadə öz məqalələrində, həmçinin “Öksüz, yaxud son busə” hekayəsində yazı istilahı ilə yanaşı bəzən bitik kəlməsindən də istifadə edib.

Əli bəy Hüseynzadənin “Yazımız, dilimiz, “İkinci il”imiz” məqaləsi ədəbiyyata, uşaq mətnlərinə maksimalist ölçülərdən yanaşmağın bariz nümunəsidir. Və əlbəttə ki, özündə bu günümüz üçün də faydalı olacaq bir çox mühüm məqamları çevrələyir.



*ELNARƏ AKİMOVA*

# Yeni beynəlxalq reytinq

## “Fitch” İpoteka və Kredit Zəmanət Fondunun reytinqini “BBB-” səviyyəsinə yüksəldib




“Fitch Ratings” beynəlxalq reytinq agentliyi tərəfindən İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) fəaliyyətinin yenidən qiymətləndirilməsi həyata keçirilib. Agentliyin qiymətləndirməsinə əsasən, fondun uzunmüddətli xarici və yerli valyutada reytinqi “BB+” səviyyəsindən “BBB-” səviyyəsinədək yüksəldilib. Qeyd edək ki, İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyəti 2009-cu ildən “Fitch Ratings” tərəfindən yerli və xarici valyutada uzunmüddətli öhdəlikləri üzrə reytinq dərəcələri ilə qiymətləndirilir. İndiyə qədər “BB” və “BB+” reytinq dərəcələri əldə edən Fond uzunmüddətli öhdəlikləri üzrə verilmiş reytinq göstəricisini yüksəltməyə nail olub.

İpoteka Fondunun müsbət reytinqlə dəyərləndirilməsində bir müddət əvvəl Azərbaycan dövlətinin beynəlxalq suveren reytinqinin yüksəldilməsi də əhəmiyyətli rol oynayıb. Belə ki, iyul ayında “Fitch Ratings” Azərbaycanın uzunmüddətli xarici valyutada reytinqinin bir pillə artırılaraq “BBB-” səviyyəsinə, yəni investisiya dərəcəli reytinqə yüksəldilməsi barədə qərar qəbul edib ki, bu da ölkəmizin 8 illik sabit “BB+”reytinqindən sonra yeni müsbət proqnozla qiymətləndirilməsinə səbəb olub. Yeni reytinq göstəricisinin müəyyən edilməsi Azərbaycanın iqtisadi və maliyyə sektorunda baş verən irəliləyişlərə əsaslanıb və “Fitch” ölkəmizdə həyata keçirilən makroiqtisadi və monetar siyasət tədbirlərini, institusional islahatları, investisiya mühitinin yaxşılaşdırılmasını, dövlət borcunun, xüsusilə xarici dövlət borcunun aşağı səviyyəsi və digər ardıcıl və çoxşaxəli islahatları nəzərə alaraq suveren reytinqimizi investisiya dərəcəsində müəyyən edib.

“Fitch”in mövqeyinə görə reytinqin ölkə reytinqinə bərabər “BBB-” səviyyəsində (proqnoz “stabil”) təsdiq olunması fond ilə dövlət arasında möhkəm əlaqənin olması və onun əlverişli mənzil təminatı, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsini asanlaşdırmaqla biznes mühitinin inkişafında mühüm strateji əhəmiyyətindən irəli gəlir. Bu baxımdan “BBB-” reytinqinin təsdiq olunması əsas etibarilə İKZF-nin dövlətə məxsus olması, yaradıldığı gündən etibarən fəaliyyətinə dövlət tərəfindən ciddi nəzarət edilməsi və davamlı dəstəklənməsi, İpoteka və Kredit Zəmanət Fondunun ölkənin sosial-iqtisadi siyasətində strateji əhəmiyyətə malik olması ilə əlaqədardır. Fond ölkəmizin iqtisadi potensialının daha da artırılması məqsədilə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, sahibkarlıq subyektlərinin zəruri maliyyə resursları ilə təmin edilməsi, bu sahədə dövlət dəstəyinin gücləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsində müstəsna rol oyanamaqdadır. Bu siyasətin mühüm bir istiqaməti kimi sahibkarlıq kreditlərinə dövlət tərəfindən zəmanət və subsidiyaların verilməsində son illərdə əhəmiyyətli addımlar atılıb. Ölkədə beynəlxalq standartlara cavab verən uğurlu və effektiv kredit zəmanət mexanizminin qurulması məqsədilə müvafiq beynəlxalq təcrübə öyrənilib, müasir kredit reytinqi modeli yaradılıb. Model vasitəsilə sahibkarlıq subyektlərinin ödəmə qabiliyyətinin qiymətləndirilməsi və risk kateqoriyalarının müəyyən edilməsi həyata keçirilməkdədir.

Ümumilikdə, inkişaf etmiş ölkələrdə mövcud olan kredit zəmanət sxemləri Azərbaycanda geniş tətbiq olunmaqla kiçik və orta biznes sahəsində maliyyələşdirilməni asanlaşdırıb, sahibkarlıq subyektlərinin bank və digər borc resurslarından fəal istifadə etməsinə, cəlb edilən resursların maya dəyərinin optimallaşdırılmasına imkanlar yaradıb və kredit risklərinin əhəmiyyətli dərəcədə azaldılmasına səbəb olub. Bütün bu amillər beynəlxalq reytinq dərəcəsinin yaxşılaşdırılmasında öz mühüm təsirini göstərib.

AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

“Fitch”in bu reytinqi həm də ona dəlalət edir ki, Fondun qeyri-kommersiya missiyasına baxmayaraq, onun yüksək maliyyə dayanıqlılığı, aktivlərin keyfiyyəti, məqbul likvidlik mövqeyi mövcuddur. “BBB-” reytinqi İpoteka və Kredit Zəmanət Fondunun beynəlxalq mövqeyinin yaxşılaşmasına, investisiya qabiliyyətinin yüksək göstəricisi kimi potensial kredit təminatçısı rolunun möhkəmlənməsinə də inamı artırır.

*E.CƏFƏRLİ*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# "Böyük qayıdış"ın yeni ünvanı!



## Bu il Cəbrayıla köç olacaq...

Vətən müharibəsində qazanılan qələbə sayəsində azad edilən ərazilərimizin bərpası istiqamətində işlər öz axarı ilə davam edir. Müvafiq infrastrukturların yaradılması, həmin rayonların Azərbaycan iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi istiqamətində ciddi addımlar atılır. İşğaldan azad edilmiş ərazilərimizdə bərpa planları və iş perspektivləri kifayət qədər genişdir. Bu rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də qeyri-neft sektoruna yerli və xarici yeni investisiyaların cəlb olunması üçün əsaslı zəmin yaradıb.

Oktyabrın 4-də isə Cəbrayıl şəhərinin işğaldan azad edilməsinin dörd ili tamam olur. Ötən dörd il ərzində şəhərin bərpası istiqamətində bir sıra addımlar atılıb və hazırda proses davam edir. İşğaldan ilk azad edilən ərazilərimizdən olan Cəbrayıl da erməni vandalizmindən çox ciddi zərər görüb, bütün maddi-mədəni irs tamamilə dağıdılıb.

Bu ilin ikinci yarımilində Cəbrayıla ilk köç nəzərdə tutulub. Ölkə başçısının siyasəti nəticəsində işğaldan azad edilmiş digər ərazilər kimi Cəbrayıla da həyat yenidən qayıdır. Əslində, bu şəhərə qayıdış hələ 8 il öncə- Aprel döyüşləri zamanı əldə etdiyimiz qələbədən sonra başlamışdı. Sakinlərin Cocuq Mərcanlı kəndinə qayıdışı Prezidentin də qeyd etdiyi kimi, "Böyük Qayıdış"ın əsasının qoyulması oldu.

**1,6 milyon manata başa gələcək...**

Bu günlərdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi məcburi köçkün ailələrinin müxtəlif ərazilərdən Cəbrayıl rayonuna köçürülməsi ilə bağlı elan etdiyi tender yekunlaşıb. Tender sərnişin və yük daşımaları ilə əlaqədardır.

Belə ki, daşımalar Bakı, Sumqayıt, Biləsuvar, Sabirabad, Şirvan, Hacıqabul, Saatlı, İsmayıllı, Şabran, Beyləqan, Mingəçevir, İmişli, Masallı, Gəncə, Göygöl, Salyan, Kürdəmir, Cəlilabad, Şəki, Zaqatala, Xaçmaz, Qazax, Şəmkir və Şamaxıdan həyata keçiriləcək. Dövlət Komitəsi qeyd olunan ərazilərdən Cəbrayıl şəhəri, Şükürbəyli və Horovlu kəndlərinə sərnişin və yük daşıma xidmətini "Yük taksisi.az" şirkətinə həvalə edib.

"Qaçqınkom"la şirkət arasında 1 593 873,2 manat dəyərində müqavilə bağlanılıb.

**Cəbrayılda iqtisadi zonalar yaratmaq üçün...**

Milli Məclisin Cəbrayıl rayonundan olan deputatı Ceyhun Məmmədov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, "Böyük qayıdış" prosesində iqtisadi baxımdan ixtisaslaşma şəhər və rayonların planlaşdırılması zamanı nəzərə alınıb: "Hansı rayonlarda, hansı işlərin görüləcəyi ilə bağlı konkret plan bir neçə müddətdir ki, mövcuddur. Söhbət ondan gedir ki, bu gün Ağdamda, həm də Cəbrayılda sənaye parkları tikilib. Cəbrayılda sənaye təyinatlı "Araz Vadisi İqtisadi Zonası" yaradılıb. Bu sənaye parkında bir çox zavodlar, fabriklər və müəssisələr fəaliyyət göstərir. Digər tərəfdən hazırda Kəlbəcərdə İstisu sanatoriyası tikilir. Kəlbəcər daha çox turistlərin qəbulu və sanatoriyalar üçün nəzərdə tutulub. Bu rayonun çox böyük turizm potensialı var. Amma məsələn, Ağdam və Cəbrayılın bir hissəsində iqtisadi zonalar yaratmaq üçün geniş imkanlar mövcuddur. Laçın rayonunda da turizm imkanları daha genişdir.

İşğaldan azad olunmuş bölgələrimizə qayıdış mərhələli şəkildə həyata keçirilməkdədir. Bu istiqamətdə dövlət səviyyəsində işlər aparılır. Böyük Qayıdışa dair I Dövlət Proqramı ölkə rəhbərliyi tərəfindən qəbul etmişdi. Mərhələli şəkildə yaşayış məntəqələri tikilib, soydaşlarımızı ora köçürülməsi həyata keçirilir. Cənab Prezident ilin əvvəlində də bunu vurğulamışdı".

**Onlar səbirsizliklə qayıdış gününü gözləyirlər**

Deputat həmçinin qeyd edib ki, bu gün hər bir cəbrayıllının ən böyük arzusu işğaldan azad olunmuş ərazilərə qısa zamanda qayıtmaqdır: "Bütün cəbrayıllıların arzusu doğma torpaqlarına qovuşmaqdır. Onlar səbirsizliklə qayıdış gününü gözləyirlər. Artıq Cəbrayıla da ilk köç olacaq. Bu bizim üçün böyük mahiyyət kəsb edir. Vətəndaşlarımızın mütləq əksəriyyəti ora köçmək istəyir. Yaşlı, gənc fərq etmir, orada yaşamaq, fəaliyyət göstərmək istəyirlər.

Çünki hazırda Cəbrayıl ən gözəl formada qurulur. Şəhərdə böyük quruculuq, abadlıq işləri həyata keçirilir. Ciddi addımlar atılır. Artıq yaxın vaxtlarda yenidən Cəbrayıldakı evlərdən ailələrin, uşaqların sevincli səsləri gələcək".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti üzrə hazırlanmışdır**

# Məktəbli formaları ucuzlaşdı...

Yeni tədris ilinin başlamasına tam bir ay qalıb. Tədris prosesi yaxınlaşdıqca valideynləri ən çox maraqlandıran məqamlardan biri məktəbli formaları ilə bağlıdır. Bəllidir ki, hər il formaların keyfiyyəti, qiyməti, bəzi hallarda isə tapılmaması ilə bağlı müəyyən müzakirələr yaranırdı. Xatırladaq ki, ötən il Nazirlər Kabinetinin qərarına əsasən, məktəbli formaları dörd fərqli rəngdə şagirdlərin istifadəsinə verilib.

**20 faiz endirim...**

Hələlik məktəbli formalarını satın alanların sayı az olsa da, yeni tədris ili ərəfəsində formaların qiymətində ucuzlaşma yaranıb. Bakı Tikiş Evinin (BTE) satış müdiri Etibar Əzimov deyib ki, məktəbli formaları ötən illə müqayisədə ucuzlaşıb: "Bu il müəssisənin daxili imkanları hesabına şalvar və ətəklərin qiymətində 20 faiz endirim etmişik. Əvvəllər şalvarlar və ətəklər 26-dan 54 ölçüyə kimi 25 manat idisə, bu ilki qiymətləri 20 manat olacaq. Endirimə səbəb çox sayda saxta paltarların satışda olmasıdır"

**1 illik zəmanət verilir**

E.Əzimov həmçinin bildirilib ki, bu il formaların yenilənməsi ilə bağlı Elm və Təhsil Nazirliyi tərəfindən onlara hər hansı bir məlumat daxil olmayıb: "Carı ildə belə bir tapşırıq olmayıb. Məlumdur ki, ötən il sadəcə olaraq Nazirlər Kabineti tərəfindən yeni məktəbli formalarının modeli təsdiq olunmuşdu. Açıq bazar olduğu üçün hər kəs bu modeli istehsal edib satır. Hələlik böyük və kütləvi surətdə alıcılar yoxdur, adətən dərslərin başlamasına az qalmış forma almağa gəlirlər. O zaman burada növbələr çox olur.

Hazırda tikiş evində Nazirlər Kabinetinin təsdiqlədiyi sənədə uyğun olaraq üç müxtəlif rəngdə vahid məktəbli formaları satılır. BTE tərəfindən satılan bütün məhsullara 1 illik zəmanət verilir".

**Məktəb direktorları ilə forma tikənlərin sazişi...**

Hər il məktəbli formalarının keyfiyyəti ilə bağlı valideynlərin əksəriyyəti narazılıq edirlər. Bəziləri isə qiymətlərin baha olmasından gileylənir. Məsələn, bir evdən iki, yaxud üç uşaq məktəbə gedirsə, bu zaman valideyn xeyli pul xərcləməli olur. Bu baxımdan valideynlər bəlli məbləğ ödədikləri halda heç olmasa, məhsulun keyfiyyətli olmasını arzulayırlar.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, bu mövzu ilə bağlı hər zaman problemlər ortaya çıxır: "Hər mövsüm başlayanda istehlakçılar qurumumuza müraciət edir, soruşurlar ki, "keyfiyyətli məktəbli formasını haradan alaq, necə seçək?".

Artıq bu sahədə çox sayda xarici ölkələrdən də paltar tikənlər işə qoşulur. O cümlədən qardaş Türkiyədən gələnlər olur və nəticədə anarxiya yaranır. Məndə olan məlumata görə Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi formalar üzərindən seçim sərbəstdir. Hər zaman qeyd edirik ki, burada məktəb direktorları ilə formaları tikənlər arasında olan sazişi pozmaq lazımdır. Yəni, onlar müəyyən əlaqə yaradıb, keyfiyyətsiz formaları daha baha qiymətə sata bilərlər".

**Forma daha ucuz başa gəlsin deyə...**

E. Hüseynov bildirib ki, məktəbli forması tikildikdən sonra müəyyən mütəxəssislər tərəfindən yoxlanılmalı, yalnız bundan sonra bazara buraxılması məqsədəuyğun olmalıdır: "Bəzən parçalarda da müəyyən problemlər olur. Mənə məktəbli forması tikişi ilə məşğul olan ixtisaslaşmış tikiş fabriklərinin birindən bildirilmişdi ki, forma müəyyən zonalara görə müxtəlif parçalardan tikilməlidir. Zona var ki, orada hava soyuqdur və yaxud istidir. Eyni parçadan hər iki zonaya forma tikmək düzgün deyil. Çox yaxşı olardı ki, belə bir diferensiallaşma olsun.

Qeyd edim ki, artıq ölkəmizdə professional tikişlə məşğul olan müəssisələr var, onlara üstünlük verilməsi lazımdır. Lakin azad bazar iqtisadiyyatıdır. Əslində, məntiqi cəhətdən bazara kim yaxşı mal çıxarırsa, həmin mal yoxlanılaraq, bazara çıxarılmalıdır. Yalnız bu zaman onu bazara buraxmaq olar.

Bəzi tikişçilər əsasən xammalın keyfiyyəti ilə bunu həll etməyə çalışırlar. Yəni, forma daha ucuz əmələ gəlsin deyə xammal təkcə pambıq parçadan deyil, böyük hissəsi süni materialdan olur".

**Bu məqamlara diqqət edin**



## Keyfiyyətli məhsulu necə seçək?

Ekspert qeyd edib ki, belə məktəbli formaları seçən zaman istehlakçılar yaxşı olar ki, onun tikiliş formasına, tikən fabrikin loqosuna diqqət etsinlər: "Fabrikin əlaqə nömrəsi varsa, ona zəng edib, soruşsunlar. Əlbəttə ki, burada qiymətin də böyük rolu var. Bir daha qeyd edirəm, formanın üzərində təsdiq olunmuş loqo olmalıdır. Buna xüsusi diqqət edilməlidir. Adətən, ucuz parçadan, təsadüfi yerlərdə tikilmiş formaların sapları sallanır, tikişlərində qırışlar olur. Bu kimi hallara fikir verilməlidir".

*Yeganə BAYRAMOVA*

## İtmişdir

Yeni Azərbaycan Partiyasından Rzayeva Şərqiyyə Rafiq qızına verilmiş 432638 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Makronistlər yeni koalisiya axtarışında

Bu günlərdə Fransanın istefa vermiş baş naziri, "İntibah" ("Renaissance") partiyası deputatlarının rəhbəri Qabriel Attal Milli Birlik (RN) və "Əyilməz Fransa (LF) partiyaları istisna olmaqla, Milli Assambleyada təmsil olunan siyasi partiya liderlərinə ünvanladığı məktubda "fəaliyyət planı" təklif edib. "İntibah" partiyasının baş katibi Stefan Sejurne tərəfindən də göndərilmiş məktubda Q.Attal bildirir ki, məqsədi adi fikir ayrılığını aradan qaldırmaqla dialoq vasitəsilə Milli Assambleyada yeni bir yol tapmaqdır.

## Attalın yalvarışları

Bir vaxtlar makronistlər Milli Assambleyada təmsil olunan digər partiyaların təmsilçilərinə yuxarıdan aşağı baxırdılar, onlara münasibətdə saymazlıq jestləri edirdilər. İndi isə onlar ədalarını yığışdıraraq rəqiblərinə həmrəylik təklifi ilə çıxış ediblər. Attal əslində, Makron hakimiyyətinin siyasi ömrünü uzatmaqdan ötrü parlament fraksiyalarının təmsilçilərinə xitabən yalvarır.

Q.Attal məktubda dövlət hesablarının bərpası, iqtisadi suverenliyin gücləndirilməsi, dəyərlərin müdafiəsi, dünyəvilik və dövlət təsisatlarının yenilənməsi, eləcə də alıcılıq qabiliyyəti, mənzil, ətraf mühit, təhlükəsizlik və iş yerləri vasitəsilə fransızların həyat şəraitinin yaxşılaşdırılması kimi üzərində işlədiyi əsas layihələrdən söz açır.

"Bütün qrupumla birlikdə bu prioritetləri müzakirə etmək üçün sizin ixtiyarınızdayam", - deyə Qabriel Attal siyasi partiyaların liderlərini fikir ayrılıqlarını aradan qaldırmağa çağırıb. Məktub Respublikaçı (sağlar), Demokrat Solçu və Respublikaçılara, Ekoloq və Sosial qrupa, Liot qrupuna və Sosialistlər və əlaqəli qrupların rəhbərlərinə göndərilib.

Qeyd edək ki, Makron partiyası parlament seçkilərinin ikinci turundan sonra Milli Assambleyada koalisiya axtarışında da bu günə qədər uğur qazana bilməyib. E.Makronun Olimpiya Oyunları zamanı barışığa çağırmaq məqsədi də koalisiya yaratmaq üçün vaxt qazanmaq məqsədi daşıyırdı. Buna baxmayaraq, makronçular hələ də Milli Assambleyada koalisiya yarada bilməyiblər.

## Makronun komandası çətin durumda

Fransa cəmiyyətində Makronun parlamentdəki bloku kimi tanınan "İntibah" partiyası deputatlarının rəhbəri Qabriel Attal Milli Assambleyada təmsil olunan siyasi partiya liderlərinə heç də xoş niyyətdən çıxış edərək məktub ünvanlamayıb. Bu, hakim komanda üçün məcburi qaydada atılan bir addımdır.



Makronistləri çətin duruma salan isə son vaxtlarda baş tutan iki seçkinin onlar üçün rüsvayçı nəticələri oldu. Söhbət "İntibah" partiyasının əvvəlcə Avropa Parlamentinə, bunun ardınca isə Milli Assambleyaya seçkilərdə uduzmasından gedir. Xatırladaq ki, Fransada iyunun 9-da Avropa Parlamentinə keçirilən seçkilərdə sağçı "Milli birlik" partiyası 31,36 faiz səs toplayaraq Makron koalisiyasını iki dəfədən çox üstələyib. Partiyasının Avropa seçkilərində iflasından sonra Makron parlamentin aşağı palatasını buraxaraq növbədənkənar seçkilər elan etdi. Bu qərar əslində, Makronun revanş cəhdi idi. Ancaq Makronun ikinci seçki cəhdi də uğursuz oldu. Belə ki, Milli Assambleyaya seçkilərin həm birinci, həm də ikinci turunda "İntibah" partiyası məğlubiyyət acısı yaşadı.

Hazırda analitiklər Makron üçün çətin hakimiyyət dövrünün başladığını, makronizm üçün sonun gəldiyini anons edirlər. Ümumiyyətlə, parlamentin yeni formalaşan tərkibi ilə onun ölkəni normal qaydada idarə edə biləcəyi mümkünsüz görünür. Qeyd edək ki, Fransa Milli Assambleyası 577 deputatdan təşkil olunur. Parlamentdə çoxluğu əldə etmək istəyən partiyaya 289 mandat lazımdır. Son seçkilərdən sonra isə "İntibah" partiyası parlamentdə cəmi 168 yerə malikdir.

*MÜBARİZ*

# Azercell-in rouminq internet paketləri 90-dan çox ölkədə aktivdir

## Yay istirahətinə Azercell-in rouminq internet paketləri ilə!




"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədinə sadiq qalan Azercell 90-dan çox ölkədə fəaliyyət göstərən 210-dan çox operatorun şəbəkəsində müxtəlif həcmli sərfəli rouminq internet paketlərini təklif edir.

Ən böyük məhsul portfeli: Lider mobil operator yerli telekommunikasiya bazarında rouminq internet paketləri üzrə ən böyük məhsul portfelinə sahibdir. Belə ki, Azercell abunəçiləri 100 MB həcmində günlük, 400 MB həcmində 3 günlük, 1 GB həcmində 14 günlük və 3GB həcmində 30 günlük internet paketlərindən yararlana bilərlər. Azercell-in korporativ abunəçiləri həmçinin istifadə müddəti 30 gün olan 10 GB-lıq paketdən də faydalanmaq imkanına malikdirlər.

Rahat və sadə istifadə qaydası: Paketlərin sifariş qaydası çox rahat və sadədir. Belə ki, rouminq internet paketlərini SMS, USSD kod və "Azercell" tətbiqi vasitəsilə aktivləşdirmək mümkündür. Ən əsası isə istifadə zamanı hesablama avtomatik olaraq paketin dəstəklədiyi şəbəkədən aparılır və telefonun ayarlarında prioritet operatorun seçilməsinə ehtiyac qalmır. Ətraflı: Rouminq internet paketləri

"Premium" tariflərinin abunəçilərinə isə seçdikləri tarif paketdən asılı olaraq hər ay 1GB, 2GB və ya 3GB həcmində rouminq internet paketi hədiyyə edilir. Ətraflı: Premium

Azercell-in bütün rouminq internet paketləri çərçivəsində səyahət zamanı WhatsApp-da yazışma ilə yanaşı, "Azercell" tətbiqi, Azercell-in rəsmi saytı və canlı çatdan (Live chat) pulsuz istifadə etmək mümkündür.

Qeyd edək ki, ümumilikdə Azercell-in rouminq xidmətindən mobil operatorun 165-dən çox ölkədə əməkdaşlıq etdiyi 390-dan çox operatorun şəbəkəsinə qoşularaq yararlanmaq olar.

# "Bakcell" ən geniş partnyor şəbəkəsinə malik debet kartını təqdim edir

Ölkənin ən böyük özəl mobil operatoru "Bakcell" ilk debet kartını - "Bakcell Kart"ı təqdim edir. Ölkənin birinci bankı "Kapital Bank"la birgə əməkdaşlıq çərçivəsində ərsəyə gətirilən "Bakcell kart" ən geniş partnyor şəbəkəsinə malik debet kartdır.

**"Bakcell Kart"ın üstünlükləri nələrdir?**

"Bakcell Kart" abunəçilərə partnyor mağazalardan 30%-dək keşbek qazandıracaq. Ödənişsiz təqdim olunacaq kartda köçürmə və nağdlaşdırma zamanı komissiya haqqı tutulmayacaq. Eyni zamanda, kart sahibləri xüsusi "Bakcell" kampaniyaları, həmçinin "Ulduzum Premium"un üstünlüklərindən faydalana biləcəklər. Bundan əlavə, "Bakcell" tətbiqi üzərindən nömrənin balansı artırıldığı təqdirdə abunəçilərə xüsusi data (internet) bonuslar hədiyyə olunacaq.

**"Bakcell Kartı" necə əldə etmək olar?**

"Bakcell Kart"ı üç valyutada AZN/USD/EUR olaraq "Bakcell" tətbiqi üzərindən asanlıqla sifariş etmək olar. Debet kartı həm rəqəmsal, həm də fiziki formada təqdim olunur. Kart fiziki formada sifariş verildikdə müştərinin istəyinə uyğun olaraq ünvana çatdırıla və ya təyin edilən "Kapital Bank" filialından əldə edilə bilər. Aktiv "Bakcell" nömrəsi olan bütün abunəçilər "Bakcell Kartı" pulsuz şəkildə sifariş edə bilərlər.

"Bakcell Kart"ı "Bakcell" tətbiqi üzərindən sifariş vermək üçün linkə keçid edin: https://onelink.to/bakcell

Qeyd edək ki, "Bakcell Kart" abunəçilərə innovativ məhsul və xidmətləri təqdim edən "Bakcell"in ilk fintex (maliyyə texnologiyası) məhsuldur. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərin ixtiyarına verəcək.

Partnyor mağazaların siyahısı ilə bu link vasitəsilə tanış olmaq olar: https://birbank.az/partners


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4802
Sifariş: 1839
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Mübariz Abdullayev